*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*

*Heydər ƏLİYEV*

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

14 iyun 2018-ci il № 45-48 (9231) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiymətı 50 qəpik

## BU SAYIMIZDA


### XVII XƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT, TRANZİT VƏ LOGİSTİKA (TRANSCASPİAN/TRANSLOGİSTİKA 2018) SƏRGİSİ KEÇİRİLİB




*İyunun 11-13-də Bakıda XVII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika (TransCaspian/Translogistika 2018) sərgisi keçirilib.*

Səh. 2

### GƏMİÇİLİYİN YUNANISTANDA NÜMAYƏNDƏLİYİ FƏALİYYƏTƏ BAŞLAYIB

*2014-cü ildə uzun fasilədən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən xarici sulardakı fəaliyyətini bərpa edən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti bu istiqamətdə ardıcıl və effektiv addımlar atır.*




Səh. 3

### "AXDG İRİ, BEYNƏLXALQ NƏQLİYYAT LAYİHƏLƏRİNİ HƏYATA KEÇİRƏ BİLƏCƏK DONANMAYA MALİKDİR"




*Bu il nəqliyyat sahəsində əlamətdar hadisələrdən biri də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin 160 illik yubileyidir.*

Səh. 4

### "CƏFƏR CABBARLI" QURU YÜK GƏMİSİ ƏSASLI TƏMİRDƏN SONRA İSTİSMARA QAYTARILIB

*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Dəniz Nəqliyyatı Donanmasına məxsus "Cəfər Cabbarlı" quru yük gəmisi "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda əsaslı təmir olunub.*




Bir ilə yaxındır aparılan təmir zamanı xeyli iş görülüb.

Səh. 5

### BÜTÜN TƏDBİRLƏR "ÜMUMDÜNYA ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ GÜNÜ"NƏ HƏSR OLUNMUŞDU

*XIX əsrin sonlarından elmi-texniki tərəqqi, sənayenin sürətli inkişafı nəticəsində ətraf mühitə edilən mənfi təsirlər XX əsrin ortalarında özünü daha qabarıq göstərirdi. Artıq insanlar təbiətə münasibətlərini dəyişməyəcəkləri, onun ehtiyatlarından səmərəsiz istifadəyə son qoymayacaqları təqdirdə bu prosesin onların özlərinə qarşı çevriləcəyini və arzuolunmaz nəticələrə gətirib çıxaracağını anladılar.*



Səh. 6

### YELKƏNÇİLƏR ÜÇÜN TƏLİM DÜŞƏRGƏSİ TƏŞKİL EDİLİB




*Yelkənli İdman Federasiyasının komandasının hazırlığı, o cümlədən yerli məşqçilərin təcrübə qazanması məqsədi ilə 31 may – 3 iyun tarixlərində təlim düşərgəsi təşkil olunub.*

Səh. 8


# MİLLİ QURTULUŞ GÜNÜNDƏN AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN ƏBƏDİLİYİNƏ DOĞRU

*XALQ MƏNƏ ÜMİD BƏSLƏYİR, MƏN BU ÜMİDİ DOĞRULTMAQ ÜÇÜN ÖMRÜMÜN QALAN HİSSƏSİNİ DƏ XALQIMA BAĞIŞLAYIRAM VƏ HƏYATIMI XALQIMA QURBAN VERMƏYƏ HAZIRAM.*

*HEYDƏR ƏLİYEV,*
*ÜMUMMİLLİ LİDER*

*HEYDƏR ƏLİYEVİN İDEYALARI YAŞAYIR, ONUN FƏLSƏFƏSİ, İDEOLOGİYASI YAŞAYIR VƏ ONUN QURDUĞU, YARATDIĞI MÜASİR AZƏRBAYCAN YAŞAYIR, ONUN YOLU İLƏ İNKİŞAF EDİR.*

*İLHAM ƏLİYEV,*
*AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ*

***Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun – Milli Qurtuluş Günüdür. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan bir insan - Heydər Əliyevdir.***



XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən o vaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Ümummilli lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Əslində, bu, bütün xalqın ürəyinin səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Beləliklə, 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi. Ulu Öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", – deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz". Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Həmin il "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. 1993-cü il oktyabrın 3-də Ümummilli Lider xalqımızın böyük əksəriyyəti tərəfindən ölkə Prezidenti seçildi.

Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk oldu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd edilir.

***(Davamı 2-ci səhifədə)***

# BAYRAMLARINIZ MÜBARƏK OLSUN!

*Hörmətli həmkarlar!*

Sizi Ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətləri ilə xalqımızın tarixinə şanlı səhifə - yeni dövrün başlanğıcı kimi daxil olan və müstəqilliyimizin sarsılmazlığını təmin edən 15 İyun - Milli Qurtuluş Günü və əzəməti hüdudsuz olan mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, sizə uzun ömür, möhkəm cansağlığı, xoşbəxtlik, süfrələrinizə ruzi-bərəkət, müstəqil Azərbaycanımızın daha da qüdrətlənməsi naminə şərəfli işinizdə uğurlar arzulayıram.

Hər bir xalqın taleyində xüsusi önəm daşıyan hadisələr və tarixi faktlar olur. Azərbaycan xalqının dövlətçilik tarixinə qızıl hərflərlə yazılmış 15 iyun da belə günlərdən biridir.

Azərbaycanın müasir uğurları milli qurtuluşumuzun müəllifi, Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilən dövlətçilik siyasətinin dəqiqliklə icrasının nəticəsidir. Bu gün dünyada söz və nüfuz sahibi olan, demokratik, dünyəvi dövlət kimi tanınan Azərbaycan möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə işıqlı gələcəyə doğru inamla addımlayır.

Gündən-günə çiçəklənən Azərbaycanda din dövlətdən ayrı olsa da, ölkə rəhbərliyi səviyyəsində İslama, insanın qəlbini və ruhunu nurlandıran ayrı-ayrı mübarək bayramlarına yüksək hörmət, ehtiram var. İnsanların dini etiqad azadlığının ən yüksək səviyyədə təminatı üçün bütün zəruri tədbirlər həyata keçirilir.

Xalqımızın əsrlərlə qəlbində yaşatdığı Ramazanı da Azərbaycan müstəqilliyə qovuşandan sonra daha böyük ruh yüksəkliyi ilə qarşılayır, bu əziz günü həm də rəsmi şəkildə bayram edirik.

Möhtərəm Prezidentimiz İlham Əliyevin dediyi kimi, bu müqəddəs bayramın dövlət səviyyəsində qeyd edilməsi bizim multikultural və tolerant prinsiplərə necə yüksək qiymət verməyimizi nümayiş etdirir. Bu gün biz dünyaya bir daha qəlbimizdəki milli dəyərlərə sadiq olduğumuz qədər bəşəri dəyərləri də yaşatdığımızı bəyan edirik. Dini, milli rəngarəngliyimizi mənəvi bütövlüyümüzün zənginliyi kimi qəbul edirik.

Xalqımızın ülvi arzularının Vətənimiz üçün səadət, tərəqqi istəkləri ilə qovuşduğu bu bayram insanlarda mərhəmət, şəfqət və bərabərlik duyğularını gücləndirir, onları gözəl niyyətlərə, nəcib, xeyirxah əməllərə çağırır.

Qoy xalqımızın səadəti, əmin-amanlığı, gənc müstəqil dövlətimizin tərəqqisi ilə bağlı bütün arzu və diləklərimiz Tanrı dərgahında qəbul olunsun və Uca Yaradan mərhəmətini Odlar yurdunun üstündən heç vaxt əskik etməsin.

Bayramlarınız mübarək olsun!

**Rauf Vəliyev,**
***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri***

(Əvvəli 1-ci səhifədə)

# MİLLİ QURTULUŞ GÜNÜNDƏN AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN ƏBƏDİLİYİNƏ DOĞRU





Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi və bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. AXC-Müsavat hakimiyyəti isə təbii ki, Heydər Əliyevin uğurlarını qısqanclıqla qarşılayıb ona mane olmağa çalışdı. Vəziyyətdən səbirlə çıxan Prezident Heydər Əliyev televiziya vasitəsilə xalqa müraciət etdi. İyunun 20-də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə yerli və xarici jurnalistlər üçün brifinq keçirdi. İyunun 21-də isə bir sıra ölkələrin diplomatları ilə görüşdü. Bu sahədə yürüdülən siyasət respublikanı informasiya blokadasından çıxardı. Dünyada ölkəmizlə bağlı formalaşan fikir müsbət yönümdə dəyişdi. Məhz belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar və s. əldə edildi. Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. Heydər Əliyev dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi, əbədi, sarsılmaz, dönməz etdi. Bütün bunlar 1993-cü il 15 iyun tarixinin nailiyyətləridir. Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması, qurtuluş deməkdir.

Ulu öndər Heydər Əliyev Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək istəyirdi, onun hər addım və hərəkətləri məhz buna yönəlmişdi. Məhz Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Beləliklə, ölkədə daha geniş miqyaslı islahatların aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına başlandı. Odur ki, Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilas günüdür. Qurtuluş günü Azərbaycanın xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtulduğu, sabitliyə, əmin-amanlığa, demokratiyaya qovuşduğu gündür. Ümummilli Liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. 15 İyun tarixi təkcə dövlətçiliyimizin xilası deyildi. Bu tarix həm də Azərbaycanın bu gününü, sabahını müəyyənləşdirdi.

Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri edib, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilib. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutub. Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq ona əvəzsiz ümummilli lider mövqeyi qazandırıb. Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində o, zəmanəmizin əbədiyaşar dahisinə çevrilib. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyinin təminatçısı kimi qəbul edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir.

Bu il Azərbaycan müstəqilliyinin 26-ci ilini yaşayır. Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur.

Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı ulu öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir. Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb. Bunu təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya təsdiq edir. Azərbaycana gələn hər bir şəxs ölkəmizdə gedən inkişafa heyran qalır. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək.

# XVII XƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT, TRANZİT VƏ LOGİSTİKA (TRANSCASPİAN/TRANSLOGİSTİKA 2018) SƏRGİSİ KEÇİRİLİB

***İyunun 11-13-də Bakıda XVII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika (TransCaspian/Translogistika 2018) sərgisi keçirilib.***

















XVII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika (TransCaspian/Translogistika 2018), VIII Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat (Road&Traffic 2018) sərgilərinin açılış mərasimində nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə deyib ki, Azərbaycan son dövrlər nəqliyyat sahəsində böyük layihələr həyata keçirir. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının birinci fazasının açılışı, yüksəkkeyfiyyətli avtomobil yollarının qurulması, hava nəqliyyatında əldə olunan nailiyyətlər görülən işlərə nümunədir. Bu işlər Azərbaycanı regionun əsas tranzit mərkəzinə çevirir.

Qeyd edək ki, sənaye müəssisələrinin yeni məhsul və nailiyyətlərini nümayiş etdirən və mahiyyət etibarı ilə bir çox cəhətdən nəqliyyat sektorunun gələcək inkişaf vektorunu müəyyənləşdirən bu sərgi Xəzər regionunda aparıcı nəqliyyat tədbirlərindən biridir. Sərgidə əsas dövlət nəqliyyat qurumları, eləcə də dəmiryol sektoru, dəniz sənayesi, aviasiya, kommersiya təyinatlı nəqliyyat, daşıma və logistika xidmətləri sahəsində fəaliyyət göstərən kommersiya şirkətləri bir arada toplanır. Sərgi Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, TRACECA, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən dəstəklənir.

"TransCaspian/Translogistica" sərgisi Böyük Britaniyanın "ITE Group" şirkətlər qrupu tərəfindən təşkil olunan "TransRussia" (Moskva), "TransPoland" (Varşava), "TransUzbekistan" (Daşkənd), "TransUkraine" (Kiyev) və "TransKazakhstan" (Almatı) kimi ixtisaslaşmış nəqliyyat-logistika sərgiləri, eləcə də "BreakBulk" beynəlxalq sərgilər (Antverpen, Hyuston, Şanxay, Əbu-Dabi, Kuala-Lumpur) və digər tədbirlər silsiləsinə daxildir. Bu il "TransCaspian/Translogistica" sərgisində dünyanın 15 ölkəsini təmsil edən 85 şirkət iştirak edib. Azərbaycan, Belarus, Litva, Rusiya, Türkmənistan, Türkiyə, Ukrayna, Yunanıstan və digər ölkələri təmsil edən şirkətlər nəqliyyat sahəsinin geniş məhsul və xidmətlər çeşidini (yükdaşımalar, lokomotiv, sərnişin və yük vaqonlarının istehsalı, hərəkət heyətinin təmiri, dəmiryol nəqliyyatı üçün komplektləşdirici hissələr, gəmiqayırma və gəmi təmiri, liman xidmətləri, kommersiya təyinatlı nəqliyyat vasitələri üçün ehtiyat hissələri və sair) təqdim edib. Sərgidə nəqliyyat şirkətləri ilə yanaşı, "Azərbaycan Dəmir Yolları" QSC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi kimi dövlət nəqliyyat qurumları da iştirak ediblər. Qeyri-neft sektorunun artması ilə əlaqədar olaraq, respublikada logistika şirkətlərinin sərgisinə marağı əhəmiyyətli dərəcədə artıb. Sərgi iştirakçılarının 30 faizdən çoxunu debütantlar təşkil edir və onların arasında dəniz daşımalarını həyata keçirən şirkətlər (Abşeron Logistika Mərkəzi, Türkmənbaşı Beynəlxalq Dəniz Limanı), dəmir yolu daşımaları sahəsində ixtisaslaşan şirkətlər ("ADY Container"), avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalar üzrə şirkətlər (Belarusun "APS Solver" şirkəti, Litvanın "Arijus UAB" şirkəti), hava nəqliyyatı şirkətləri ("Silk Way Group" şirkəti) yer alıb. Sərgidə bir sıra yeniliklər təqdim olunub. Belə ki, "AzRusTrans" şirkəti tranzit daşımalar üzrə alternativ imkanları nümayiş etdirib, "Texnovotum" şirkəti isə ziyarətçilərə avtomatlaşdırılmış lazer skaneri və defektoskopiya kimi məhsullarını təklif edib.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Bakı Ekspo Mərkəzində keçirilən XVII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika ("TransCaspian/Translogistica 2018") sərgisində öz stendi ilə iştirak edib.

Geniş ərazidə quraşdırılmış stend Gəmiçiliyin bir sıra mühüm elementlərini özündə əks etdirib və unikal tərtibatına görə xüsusi fərqlənib. Burada son illər AXDG-nin donanmasının müasirləşdirilməsi istiqamətində görülən tədbirlər və gələcək layihələr haqqında ziyarətçilərə ətraflı məlumat verilib. Bununla yanaşı, sərgidə AXDG-nin fəaliyyətini əks etdirən müxtəlif çap məhsulları, foto və videoçarxlar nümayiş olunub. Bu səbəbdən Gəmiçiliyin stendi həm yerli, həm də xarici ziyarətçilərin xüsusi marağına səbəb olub.

Sərginin açılış mərasimində iştirak edən nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Gəmiçiliyin stendi ilə yaxından maraqlanıb. Nazirə məlumat verilib ki, builki sərgi Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illik yubileyi ilə üst-üstə düşür. Ölkənin ən qocaman şirkətlərindən olan AXDG dəyərlərinə və missiyasına hər zaman sadiqdir və prezident İlham Əliyevin rəhbərliyi ilə durmadan inkişaf edir. Belə ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi yerli və beynəlxalq daşımaların artırılması, ölkənin rəqabət qabiliyyətinin və tranzit potensialının gücləndirilməsinə layiqli töhfə vermək üçün bütün imkanlarını səfərbər edib.

Sərgilərin təşkilatçıları qismində "Iteca Caspian" və "ITE Group" şirkətləri çıxış ediblər.

# GƏMİÇİLİYİN YUNANISTANDA NÜMAYƏNDƏLİYİ FƏALİYYƏTƏ BAŞLAYIB

***2014-cü ildə uzun fasilədən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən xarici sulardakı fəaliyyətini bərpa edən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti bu istiqamətdə ardıcıl və effektiv addımlar atır. Belə ki, son dörd ildə Xəzərdənkənar hövzələrdə – Azov, Qara, Aralıq dənizlərində üzən gəmilərimizin sayı 13-ə çatdırılıb. Onların 11-i quru yük gəmisi, 2-si tankerdir. Üçrəngli bayrağımız altında xarici sularda üzən həmin gəmilərin daha səmərəli istismarını isə Gəmiçilik tərəfindən Türkiyədə təsis edilən "Caspdry" və "Casptankers" şirkətləri həyata keçirir.***

Bütün bunlar onu deməyə imkan verir ki, artıq Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi xarici bazarlarda öz mövqeyini xeyli möhkəmləndirib. İndi "AXDG" QSC beynəlxalq sularda quru və maye yük daşımalarında lider şirkətlərdən birinə çevrilməyi qarşısına məqsəd qoyub.

Şübhəsiz ki, AXDG-nin bu istiqamətdə aktiv fəaliyyəti və durmadan inkişafı azərbaycanlı dənizçilərin beynəlxalq sularda üzmə imkanlarını da artırır. Bu, Gəmiçiliyin kadr potensialının möhkəmləndirilməsi, yüksək ixtisaslı dənizçilərin yetişdirilməsinə birbaşa təsir göstərir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC xarici sularda fəaliyyətinin daha da genişlənməsi və möhkəmləndirilməsi məqsədi ilə daha bir uğurlu addım atıb. Belə ki, bundan sonra AXDG-nin vacib dəniz nəqliyyatı arteriyaları üzərində yerləşən Yunanıstanın paytaxtı Afinada nümayəndəliyi fəaliyyət göstərəcək.

Yeni təsis olunan nümayəndəliyin açılış mərasimində Azərbaycanın Yunanıstandakı səfirliyinin müvəqqəti işlər vəkili Eldar Əliyev, nüfuzlu beynəlxalq təsnifat cəmiyyətləri və gəmiçilik şirkətlərinin əməkdaşları, o cümlədən iş adamları iştirak ediblər.
















Mərasimdə çıxış edən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev qonaqlara son zamanlar ölkəmizdə həyata keçirilən irimiqyaslı nəqliyyat-infrastruktur layihələri haqqında ətraflı məlumat verib. Bildirib ki, Azərbaycan artıq Asiya və Avropa qitələrini birləşdirən bir "Hub" rolunu oynayır. Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri barədə ətraflı məlumat verən Rauf Vəliyev Çin və Avropa bazarlarını birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutundan və onun əsas iştirakçılarından biri olan və 160 illik yubileyini qeyd etməyə hazırlaşan Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi haqqında söz açıb. Qeyd olunub ki, gündən-günə inkişaf edən bu marşrut üzərində yeni çağırışlara cavab vermək üçün Gəmiçilik öz donanmalarını müasir gəmilərlə yeniləyir, kadr bazasını möhkəmləndirir. Vurğulanıb ki, 9 mindən artıq əməkdaşı olan Gəmiçiliyin iki böyük donanması mövcuddur. Dəniz Nəqliyyat Donanmasının tərkibində 52, Xəzər Dəniz Neft Donanmasının tərkibində isə 212 müxtəlif təyinatlı gəmi istismar edilir. Həmçinin "AXDG" QSC-nin nəzdində Gəmi Təmiri və Tikintisi zavodları, Azərbaycan Dövlət Dəniz Akademiyası və Təlim Tədris Məkəzi fəaliyyət göstərir. Bu da Gəmiçiliyin beynəlxalq bazarlarda rəqabət qabiliyyətliliyini daha da artırır.

Tədbirdə həmçinin "B2B" formatında işgüzar görüşlər də baş tutub. Azərbaycan Xəzər Dəniz Gəmiçliyi ilə bir sıra beynəlxalq şirkətlərin əməkdaşlıq perspektivləri müzakirə olunub.

Mərasimdə Azərbaycanın əlverişli coğrafi məkanını, təbiət, mədəniyyət və tarixini, iqtisadi inkişafını, aparılan irimiqyaslı nəqliyyat-infrastruktur layihələrini, o cümlədən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin inkişafını əks etdirən videoçarx da nümayiş etdirilib.




# 25-Cİ "POSEYDONİYA-2018" SƏRGİSİNDƏ GƏMİÇİLİYİN STENDİNƏ MARAQ BÖYÜK İDİ

***Yunanıstanın paytaxtı Afinadakı "Metropolitan Expo" mərkəzində dünyanın ən böyük dənizçilik sərgilərindən sayılan 25-ci "Poseydoniya-2018" sərgisi keçirilib.***

Builki sərgidə 160 illik yubileyini qeyd etməyə hazırlaşan və ölkənin qocaman şirkətlərindən biri – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC də öz stendi ilə təmsil olunur. Stenddə ölkəmizin dənizçilik sahəsi, o cümlədən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi, Bakı Gəmiqayırma Zavodu haqqında məlumatlar, videoçarxlar nümayiş etdirilib.

Stendin özəlliklərindən biri də burda yaradılan milli güşədir. Milli süvenir və əşyalarla bəzədilən güşədə ölkəmizin tarixi, mədəniyyəti, mətbəxi tərənnüm olunur. Bütün bunlar Gəmiçiliyin stendinə marağı bir qədər də artırıb.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti sərgi çərçivəsində "B2B" formatında bir sıra işgüzar görüşlər keçirib, dənizçilik sahəsində nüfuzlu beynəlxalq şirkətlərlə müzakirlər aparıb. Danışıqlarda Gəmiçiliyin fəaliyyət istiqamətləri, Xəzərdə və xarici sularda üzən donanmaları haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin də təmsil olunduğu nüfuzlu biznes platformalardan sayılan və iki ildən bir keçirilən sərgidə bu il ümumilikdə 92 ölkədən 1900-dən çox şirkət iştirak edir. Bu da 2016-cı ildəki iştirakçıların sayından 16% çoxdur. Onların arasında dənizçiliklə əlaqəli qurumlar, müxtəlif beynəlxalq təşkilatlar, təsnifat cəmiyyətləri, təhsil müəssisələri yer alıb. Sərgiyə dünyanın ən böyük gəmi istehsalçıları Çin, Yaponiya və Cənubi Koreyadan da nümayəndələr qatılıb.

Sərgidə şirkətlər xüsusi stendlərdə öz məhsullarını nümayiş etdirməklə yanaşı, işgüzar əlaqələr də qurublar.























# LOGİSTİKANIN MEMARLIĞI

## PREZİDENT İLHAM ƏLİYEV: "BİZ AZƏRBAYCANDA ÇOX GÜCLÜ NƏQLİYYAT-LOGİSTİKA MƏRKƏZİNİ YARATDIQ"




***Azərbaycan Qafqazda seçilən, dünyanın aparıcı dövlətləri tərəfindən qəbul edilən unikal və bənzərsiz logistika sistemi yarada bilmişdir. Bu baxımdan paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində yeni istifadəyə verilən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksini həmin sistemdə həm sonuncu naxış, həm də mükəmməl logistika aləti kimi dəyərləndirmək yerinə düşər.***

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı bütünlükdə ölkənin nəqliyyat infrastrukturunu mükəmməlliyə və kamilliyə doğru cilalayan ən vacib iqtisadi layihədir. Bu limanın müasir dünya standartlarına uyğunlaşdırılması, ölkənin tranzit potensialını artırması, Azərbaycanı bütün dünya üçün maraq kəsb edən logistika mərkəzinə çevirməsi dövlətin iqtisadi siyasətinin tərkib hiissəsidir. Uzunmüddətli logisttika layihələrinin davamlı reallaşdırılması böyük siyasi və iqtisadi dividendlər gətirməklə yanaşı, həm Azərbaycanın regionda və bütün dünyada mövqeyini möhkəmləndirir, həm də onun siyasi və strateji əhəmiyyətini artırır. İnsan orqanizmində ürək hansı rolu oynayırsa, Bakı Beynəlxalq Dəniz Limanı da Azərbaycanın nəqliyyat strukturunda "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərini özündə birləşdirən həmin funksiyanı daşıyır.

Bakı Dəniz Limanı ölkə ərazisindən keçən avtomobil və dəmir yollarının kəsişməsində yerləşir və əsas hava limanına yaxındır. Ölkənin logistika sisteminə su yollarının bu minvalla qoşulması həmin ərazinin geniş ixrac imkanlarına malik beynəlxalq nəqliyyat qovşağına çevrilməsini qaçılmaz edir. Azərbaycan dəniz nəqliyyatının inkişafının müasir mərhələsinə keçməklə Avrasiya məkanında qitələri birləşdirən unikal logistika sistemini qurmuşdur. 2014-cü ilin sentyabrında iki körpüdən ibarət bərə terminalı, bu ilin yanvarında isə yenə də iki körpüdən ibarət olan Ro-Ro terminalı istifadəyə verilmişdir. 117 hektar ərazini əhatə edən və 12 yanalma körpüsünə malik limanın illik yükaşırma imkanı 15 milyon ton yük, o cümlədən 100 min konteynerdir.

Suyun səviyyəsinin müəyyən hədlərdə enib-qalxmasından asılı olmayaraq, gəmilərin körpüyə təhlükəsiz yan alması təmin edilib. Limanın akvatoriyasında 7,5 kilometr uzunluğunda dibdərinləşdirmə işləri aparılıb, dönmə dairəsinin diametri 450 metr olan giriş kanalı inşa olunub. Layihə çərçivəsində limanın əməliyyat binası, yük sahələri və anbarlar, sərhəd və gömrük xidməti məntəqələri, bütövlükdə müxtəlif təyinatlı 72 bina və qurğu inşa olunub, qapalı və açıq anbarlar tikilib. Prezident İlham Əliyevin sözləridir: "Şadam ki, bu gün burada ən yüksək standartlar tətbiq olunur, bütün avadanlıq, lazım olan texniki vasitələr, ən müasir kranlar alınıb quraşdırılıb. Beləliklə, biz Azərbaycanda çox güclü nəqliyyat-logistika mərkəzini yaratdıq".

Onu da demək yerinə düşərdi ki, qarşıya qoyduğu vəzifələrin vaxtında və keyfiyyətli icrası üçün işlərin başlama və tamamlama tarixləri göstərilməklə tədbirlər planı hazırlanıb, layihə seqmentlər üzrə ikinövbəli iş rejimi tətbiq olunmaqla icra olunub. Bu da işlərin dinamikasını əvvəlki dövrlərlə müqayisədə 5 dəfə artırmağa imkan verib. Tikintiyə 1500-ə yaxın işçi, 300-dək müxtəlif təyinatlı texnika cəlb edilib. Yeni liman kompleksinin baş planı və ümumi layihəsi beynəlxalq açıq tenderin qalibi, Niderlandın "Royal Haskoning" şirkəti tərəfindən hazırlanıb. Kompleksin ərazisində tikinti işləri yerli şirkət – "Evrascon" ASC tərəfindən yerinə yetirilib.

Gəmilərin və Liman Vasitələrinin Mühafizəsi üzrə Beynəlxalq Məcəllənin tələblərinə uyğun mühafizə sistemi qurulub, müasir kameralar quraşdırılıb, sərhəd və gömrük nəzarəti zonalarının ayrılması məqsədilə 1 idxal və 2 ixrac sahəsindən ibarət zonalar yaradılıb.

"Yaşıl liman" konsepsiyasının tələblərinə uyğun olaraq kompleksin inşası zamanı yüksək ekoloji tələblər nəzərə alınıb, çirkli suların təmizlənməsi üçün qurğular inşa edilib. Beləliklə, Xəzər dənizindən səmərəli, sürətli və təhlükəsiz bərə keçidi, demək olar ki, təmin edilib.

Liman kompleksi Azərbaycanın logistika sistemində Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçün birbaşa yükcəmləyici məntəqə funksiyasını yerinə yetirəcək. Beləliklə, şimal, cənub, şərq və qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yük axınları yeni liman kompleksində cəmlənəcək, buradan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilər vasitəsilə şərq istiqamətində dayanıqlı logistik zəncir yaradılacaq.

Azərbaycan Prezidenti İlham Əliyev limanın açılış mərasimindəki çıxışında qeyd etmişdir ki, liman üçün Ələtin seçilməsi təsadüfi deyil. Belə ki, mövcud Bakı Dəniz Limanı artıq tələbatı ödəmirdi və getdikcə artan yükləri qəbul etmək imkanları məhdudlaşırdı. Ələtdən qərb və cənub istiqamətinə avtomobil və dəmir yolları açılır ki, bu da qəsəbə ilə birlikdə logistika və nəqliyyat infrastrukturunun daha sürətlə inkişaf etməsinə təkan verəcək: "…Biz yaxın gələcəkdə Ələt Azad İqtisadi Zonasının yaradılmasına başlayacağıq. Deməyə tam əsas var ki, Bakı şəhərinin bu ərazisi gələcəkdə çox sürətlə inkişaf edəcək, çoxsaylı iş yerləri yaradılacaq. Beləliklə, Ələt ölkəmizin iqtisadi nəqliyyat potensialının inkişafında, əlbəttə ki, önəmli yer tutacaqdır".

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin istifadəyə verilməsi bir daha sübut edir ki, Azərbaycan nəqliyyat infrastrukturu ilə bağlı qarşıda duran bütün vəzifələri uğurla, həm də böyük sürətlə icra edir. İndi Xəzər dənizində 260 gəmidən çox böyük donanmamız var. Son bir neçə il ərzində əlavə 18 gəmi alınmış, gəmiqayırma zavodu tikilmişdir. Artıq Azərbaycan bütün növ gəmiləri istehsal etməklə xarici tərəfdaşlardan asılılığı aradan qaldırmışdır.

Son 15 il ərzində ölkəmizdə 15 min kilometr avtomobil yolu salınmış, bütün qonşu dövlətlərlə sərhədərə qədər gedən yollar yenidən qurulmuş, şəhərlərarası, kənd yolları infrastrukturu yaradılmış, 7 aeroport tikilmişdir. Ölkəmiz müasir təyyarə parkına malikdir. Dünyanın 9 beşulduzlu hava limanından biri Heydər Əliyev Beynəlxalq Aeroportudur.

Keçən ilin oktyabrında istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu tarixi layihə kimi Asiyanı Avropa ilə birləşdirdi. Hazırda "Şimal-Cənub nəqliyyat dəhlizi" yaradılır. Şimaldan Cənuba, Şərqdən Qərbə gedən yollar Azərbaycandan keçir. Avrasiya məkanında açıq dənizlərə çıxışı olmayan Azərbaycan nəqliyyat və logistika mərkəzinə çevrilir. Lakin Prezident İlham Əliyev bu nailiyyətləri də son uğur saymır və perspektivlərə belə toxunur: "Ancaq biz gələcəyə baxmalıyıq və baxırıq. Hazırda "Cənub-Qərb nəqliyyat dəhlizi"nin işə salınması ilə məşğuluq. Bu da çox önəmli nəqliyyat dəhlizidir və mənə verilən məlumata görə, birinci sınaq qatarı artıq bu yolla hərəkət edib. Beləliklə, biz böyük nəqliyyat infrastrukturu yaratmaqla Azərbaycanın geosiyasi, geoiqtisadi önəmini qat-qat artırmış oluruq. Eyni zamanda, bu layihələr beynəlxalq əməkdaşlığı genişləndirir, gücləndirir. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərində iştirak edən ölkələrin sayına, onların gücünə baxsaq, görərik ki, bu, doğrudan da, genişmiqyaslı beynəlxalq əməkdaşlıq formatıdır. "Şərq-Qərb nəqliyyat dəhlizi" Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə və ondan sonra Avropa ölkələrini birləşdirir. "Şimal-Cənub nəqliyyat dəhlizi" Pakistan, Hindistan, İran, Azərbaycan, Rusiya, Şimali Avropa ölkələrini birləşdirir. "Cənub-Qərb dəhlizi" isə daha geniş formatda ölkələri birləşdirir. Bütün bu layihələrdə iştirak edən ölkə Azərbaycandır. Biz bu layihələrin həyata keçirilməsi üçün çox böyük səylər qoyduq, çox böyük siyasi addımlar atıldı. Yəni bu layihələrin həyata keçirilməsi üçün məqsədyönlü, düşünülmüş şəkildə işlədik, çalışdıq. Nəhayət, bunun nəticəsini görürük".

***Bahadur İmanquliyev***

# "YAXT KLUB"DA UŞAQLAR ÜÇÜN ƏYLƏNCƏLİ BAYRAM TƏDBİRİ KEÇİRİLİB

***1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi günü münasibəti ilə Səbail Rayon İcra Hakimiyyəti və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı ilə xüsusi tədbir təşkil olunub.***



Tədbirdə müxtəlif sahələr üzrə istedadı olan uşaqlar, idmançılar, əlil və sağlamlığı məhdud olan, İcma əsaslı reabilitasiya mərkəzində xidmət göstərilən, müxtəlif uşaq evlərində tərbiyə alan, rayondakı 219 saylı ev-məktəbin şagirdləri, həmçinin rayonun aztəminatlı ailələrinin uşaqları iştirak edib. Ümumilikdə 200-dən çox uşaq üçün Dənizkənarı Milli Parkdakı "Yaxt klub"da əyləncəli bayram tədbiri keçirilib.

Səbail Rayon İcra Hakimiyyətinin başçısının birinci müavini Xalidə Bayramova çıxış edərək tədbirə qatılan bütün uşaqları və onların valideynlərini Uşaqların Beynəlxalq Müdafiəsi günü münasibətilə təbrik edib. Bayramın tarixçəsindən danışan X.Bayramova bildirib ki, hazırda Azərbaycanda uşaqlar dövlət tərəfindən hərtərəfli diqqət və qayğı ilə əhatə olunublar.

Qeyd olunub ki, Azərbaycanda uşaq siyasətinin əsası Ümummillli lider Heydər Əliyev tərəfindən qoyulub. Azərbaycan körpələri hər il Heydər Əliyevlə olan görüşlərdən sonsuz coşqu və böyük ilham alırdılar. Bu səmimi görüşlər hər bir uşağın yaddaşında əbədi iz buraxıb.

Uzaqgörən siyasi lider olan Heydər Əliyevin yaratdığı və nəsillər üçün miras qoyduğu ənənələr bu gün də uğurla davam etdirilir. Prezident İlham Əliyevin Uşaq hüquqlarının müdafiəsi sahəsində atdığı addımlar, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın gördüyü işlər bu ənənələrin hələ uzun illər yaşayacağına və Azərbaycan uşaqlarının taleyində əhəmiyyətli rol oynayacağına zəmanət verir.

Heydər Əliyev Fondunun fəaliyyəti Azərbaycanın gələcəyi olan uşaqlara yüksək qayğı nümunəsi olmaqla yanaşı, cəmiyyətin ümumi potensialının bu gün də səfərbər olunmasına yönəlib. Fondun «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi əsasında ötən illər ərzində respublikamızın ən müxtəlif bölgələrində yüzlərlə müasir məktəb binası tikilib istifadəyə verilmiş, xeylı körpələr evi, bağça və internat məktəbi əsaslı təmir olunub.

Bu gün dövlətimiz hər bir azərbaycanlı uşağının yüksək sosial-mənəvi mühitdə böyüməsinə çalışır. Məqsəd – uşaqların layiqli, firavan yaşayış səviyyəsinin, təlim-tərbiyəsinin, təhsilinin, sosial müdafiəsinin, sağlamlığının yüksək səviyyədə təşkil edilməsidir.

Tədbirdə tanınmış incəsnət xadimləri ilə yanaşı, istedadlı uşaqların ifasında konsert proqramı təşkil olunub, şən klounlar və məzhəkəçilər tədbiri daha da canlandırıb və yaddaqalan edib.

Sonda təşkilatçılar tərəfindən uşaqlara hədiyyələr təqdim olunub.

# AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ UŞAQLAR ÜÇÜN MARAQLI EKSKURSİYA TƏŞKİL EDİB
















***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Dalğa" və "Xəzər" uşaq bağçalarında məktəbəqədər təhsil alan şagirdlərin iştirakı və İnsan Resurslarının İdarəedilməsi Departamentinin təşəbbüsü ilə 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı maraqlı tədbir keçirilib.***

"Kitab necə yaranır" mövzusuna həsr olunmuş tədbir çərçivəsində uşaqların Azərbaycanda fəaliyyət göstərən ən böyük poliqrafiya müəssisələrindən biri olan "Şərq-Qərb" nəşriyyatına ekskursiyası təşkil olunub. Burada onlar kitabın çapa hazırlanması və ağ kağızdan rəngli kitabın alınması prosesini yaxından izləmək imkanı əldə ediblər. Çoxları üçün adi görünən kitabların hazırlanmasının əslində nə qədər böyük zəhmət tələb etdiyinə uşaqlar öz gözləri ilə şahidlik ediblər.

Ekskursiyadan sonra "Azər-kitab" mərkəzində kitabın qədim zamanlarda və hazırkı dövrdə hazırlanması qaydaları haqqında videoçarx nümayiş olunub. Uşaqlar videoçarxı maraqla izləyiblər.

Tədbir çərçivəsində uşaqlara dəniz mövzusuna uyğun öz əlləri ilə rəngli kağızlardan gəmi düzəltmək tapşırığı verilib. Hər bir şagird böyük həvəs və bacarıqla tapşırığın öhdəsindən gəlib. Bu işdə balacalara "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin İnsan Resurslarının İdarəedilməsi Departamentinin gənclərlə iş üzrə koordinatoru Roza Bədəlova yaxından kömək edib. Daha sonra uşaqlar əl işlərini vatman kağızına yerləşdirərək divar qəzeti ərsəyə gətiriblər.

Tədbirin sonunda iştirakçılara kitab, məktəb ləvazimatı və kağız modullardan ibarət bədii konstruksiyalar hədiyyə olunub.

# "AXDG İRİ, BEYNƏLXALQ NƏQLİYYAT LAYİHƏLƏRİNİ HƏYATA KEÇİRƏ BİLƏCƏK DONANMAYA MALİKDİR"

***Bu il nəqliyyat sahəsində əlamətdar hadisələrdən biri də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin 160 illik yubileyidir.***




Bu barədə nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə XVII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika (TransCaspian/Translogistika 2018), VIII Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat (Road&Traffic 2018) sərgilərinin açılışına həsr olunan mətbuat konfransında deyib.

Nazir müavini bildirib ki, bu gün AXDG Xəzər dənizi hövzəsində bütün iri, beynəlxalq nəqliyyat layihələrini həyata keçirə biləcək donanmaya malikdir. Hər il bu donanmanın müasirləşdirilməsi və genişləndirilməsi işləri həyata keçirilir.

Elmir Vəlizadə Azərbaycanın gəmiqayırma sahəsindəki inkişafından danışarkən qeyd edib ki, bu, öz donanmamızı müasirləşdirmək və yeniləmək üçün daxili imkanlarımızdan istifadə etmək üçün geniş imkanlar açır. Bununla belə, təkcə biz deyil, digər ölkələr də gəmiqayırma sahəsində əldə etdiyimiz inkişafdan yararlanır, gəmi təmirlərini Azərbaycanda həyata keçirirlər.

# XƏZƏRİN HÜQUQİ STATUSUNA DAİR KONVENSİYANIN QƏBUL EDİLMƏSİ ÜZƏRİNDƏ İŞ APARILIR



***"Xəzər beşliyi" ölkələri (Rusiya, Azərbaycan, İran, Qazaxıstan və Türkmənistan) avqustda keçiriləcək sammitdə Xəzərin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsi üzərində iş aparırlar. Bu sənəd bir çox mübahisəli, o cümlədən Xəzərin ehtiyatlarının mənimsənilməsi məsələlərini həll etməyə imkan verəcək.***

Bu fikirləri Rusiya Federasiyası xarici işlər nazirinin müavini, stats-katib Qriqori Karasin Dövlət Dumasında çıxışı zamanı səsləndirib.

TASS informasiya agentliyi xəbər verir ki, Q.Karasin hazırda bütün "Xəzər beşliyi" ölkələrinin intensiv iş apardığını, Xəzərin hüquqi statusu haqqında Konvensiyanın hazırlanması üzrə xüsusi işçi qrupunun yaradıldığını qeyd edib. Sənəd Xəzərin mahiyyəti, gələcəkdə onun ehtiyatlarının Xəzəryanı dövlətlər tərəfindən mənimsənilməsinə yanaşma tərzi, su hövzəsinin milli sektorlara bölünməsi kimi bu və ya digər bir çox mübahisəli və aydın olmayan məsələləri həll etməyə imkan verəcək.

Rusiya xarici işlər nazirinin müavini deyib: "Avqust ayında "Xəzər beşliyi" ölkələrinin sammitinin, çox ehtimal ki, Qazaxıstanda keçirilməsi planlaşdırılır. Biz tərəfdaşlarımızla birgə bu Konvensiyanın məhz qarşıdakı sammitdə imzalanması üçün ciddi hazırlıq işləri aparırıq".

***Fəridə Abdullayeva***

## “CƏFƏR CABBARLI” QURU YÜK GƏMİSİ ƏSASLI TƏMİRDƏN SONRA İSTİSMARA QAYTARILIB










***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin Dəniz Nəqliyyatı Donanmasına məxsus “Cəfər Cabbarlı” quru yük gəmisi “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunda əsaslı təmir olunub.***

Bir ilə yaxındır aparılan təmir zamanı xeyli iş görülüb. Belə ki, 3850 ton yükgötürmə qabiliyyətinə malik gəminin gövdəsində, göyərtələrində, yük anbarlarında və sair sahələrində korroziyaya uğramış metal təbəqələr dəyişdirilib, bu məqsədlə bütövlükdə 350 ton metal işlədilib. Kayutlar müasir tələblər səviyyəsində təmir olunaraq yeni avadanlıq və mebellə təchiz edilib.

Gəminin baş və köməkçi mühərrikləri, əsas və yardımçı sükan qurğuları, ballast, hava, su, yanğınsöndürmə, yağ və yanacaq sistemləri əsaslı təmir olunub.

Bundan başqa, gəminin bütün maşın və mexanizmlərinə baxış keçirilib, anbarları modernizasiya edilib, ikinci gövdə qatı tikilib.

Həmçinin gəminin bütün elektrik avadanlıqları, o cümlədən elektrik mühərrikləri, generatorları, radionaviqasiya cihazları yoxlanılaraq, zəruri təmir işləri yerinə yetirilib, əksər boru sistemləri dəyişdirilib.

Təmirdən sonra gəmi dəniz sınağından keçirilib. Sınaq uğurla başa çatıb və gəmi istismara qaytarılıb.

Xatırladaq ki, “Cəfər Cabbarlı” quru yük gəmisinin uzunluğu 123.50, eni 15 metr, maksimal sürəti 11.7 uzeldir.

## ADDA-DA “ELEKTRON AKADEMİYA” LAYİHƏSİNƏ START VERİLİB

***Yüksək ixtisaslı milli və beynəlxalq kadrlar hazırlayan ali təhsil müəssisəsi kimi Azərbaycan Dövlət Dəniz Akademiyasının prioritet məqsədlərindən biri təlim-tədris prosesində innovativ texnologiyaların tətbiqini təmin etməklə idarəetmənin və tədris mühitinin elektronlaşdırılmasıdır.***




İlkin mərhələdə tədrisin elektronlaşdırılması prosesinin Akademiya üçün effektivlik və qənaətbəxşlik dərəcəsinin müəyyən edilməsi, elektron sistemdən istifadə vərdişlərinin aşılanması və xərclərə qənaət edilməsi məqsədilə müvafiq proqram təminatından demo-versiya formatında istifadə edilməsi nəzərdə tutulub. Bu məqsədlə “Ultra technologies” şirkəti ilə növbəti ilin yanvar ayına qədər onlara məxsus “EduMan” proqram təminatından demo-versiyada əvəzsiz istifadə barədə müqavilə bağlanıb. Sistemdən istifadə qaydaları ilə tanışlıq məqsədilə Akademiyanın professor-müəllim və inzibati heyətinə təlim və treninqlərə mayın 29-da start verilib.

Artıq bir neçə dövlət təhsil müəssisəsində istifadəyə verilmiş və özünü dogrultmuş “EduMan Təhsil Müəssisələrinin Tədris Proseslərinin Avtomatlaşdırılması” sistemi müəllim və tələbə arasında qarşılıqlı tədris fəaliyyətinin genişlənməsi, müəllimlərin tədris planlarına nəzarət etməsi, təhsil resurslarının mərkəzləşdirilmiş saxlanılma qaydalarının təşkili, statistik və analitik hesabatlar üzrə informasiyanın toplanılması, təşkil olunacaq imtahanların daha effektiv və mərkəzləşdirilmiş yolla aparılması, imtahan şəffaflığının artırılması, tədris üzrə təşkilati strukturun idarə edilməsi və s. kimi proseslərə geniş imkanlar yaradır.

Sistem, veb texnologiyalar əsasında qurulduğu üçün istənilən kompyuterdən həm daxili şəbəkə, həm də internet vasitəsilə məlumatların ötürülməsi, dərs cədvəllərinin qurulması, müəllimlərə aid planların hazırlanması, təşkilati strukturda aparılan düzəlişlərin əlavə edilməsi, müxtəlif ölçüdə hesabatların hazırlanması və onların “MS OFFİCE” proqramı ilə inteqrasiyasının təmin edilməsi kimi mühüm imkanlara malikdir.

## TANAP SOSİAL-İQTİSADİ İNKİŞAFA BÖYÜK TÖHFƏ VERƏCƏK



***Trans-Anadolu təbii qaz boru kəmərini (TANAP) yalnız bir boru kəməri layihəsi olaraq düşünmək onun potensialını anlamamaq deməkdir.***

Bu sözləri TANAP-la bağlı fikir və mülahizələrini AZƏRTAC-ın xüsusi müxbiri ilə bölüşən “Eko Avrasiya” Dərnəyinin sədri, iqtisadiyyat üzrə tanınmış ekspert Hikmet Eren deyib.

O bildirib ki, ümumiyyətlə boru kəmərləri ölkələrin enerji təhlükəsizliyinə zəmanət verməklə yekunlaşmır, həmçinin beynəlxalq statuslu enerji kəmərləri bir çox sahə üzə uzunmüddətli inkişafı təmin edir: “Azərbaycanın liderliyi ilə gerçəkləşən TANAP Türkiyənin həm tarixi dostluq və qardaşlıq münasibətlərində olduğu Azərbaycan, həm də uzun illərdən bəri üzünü çevirdiyi Avropa ilə yeni bir bağlantı qurmasına vasitə olacaq. TANAP layihəsinin məqsədi Xəzər dənizinin Azərbaycan sektorunda hasil edilən təbii qazı Türkiyəyə, sonra da Avropaya çatdırmaqdır. Eyni zamanda, bu enerji siyasəti nəticəsində Azərbaycan qazını alan Türkiyə və Avropa ölkələri üçün səmərəli bir sənaye standartları müəyyən edib. Bu sahədəki əməkdaşlıq Azərbaycan qazının alıcı tərəfləri arasında iqtisadiyyatın hər sahəsində ticarət dövriyyəsinin artmasına təkan verəcək”.

H.Eren hesab edir ki, Azərbaycan qazının Avropa bazarlarına etibarlı şəkildə çatdırılmasını təmin edən TANAP Türkiyədə getdikcə artan təbii qaz tələbatının ödənilməsinə, eyni zamanda, ölkənin sosial-iqtisadi inkişafına böyük töhfə verəcək. Hazırda uğurla fəaliyyət göstərən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kəmərləri və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ardınca TANAP-ın istifadəyə verilməsi Azərbaycan və Türkiyənin qardaşlıq münasibətləri sayəsində gələcəkdə ortaya çıxacaq digər beynəlxalq iqtisadi layihələrin dünya birliyi tərəfindən dəstəklənməsini təmin edəcək.

***Sabir Şahtaxtı***

## BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU NAXÇIVAN İSTİQAMƏTİNDƏ DAVAM ETDİRİLƏCƏK



***Qars-İqdır-Aralıq-Dilucu dəmir yol xətti tikintisinin Naxçıvan Muxtar Respublikası (Azərbaycan) istiqamətində davam etdirilməsi işlərinə 2018-ci ilin sonu – 2019-cu ilin əvvəlində start veriləcək.***

“TURAN TODAY” agentliyi bildirir ki, bu barədə yerli jurnalistlərə Türkiyənin nəqliyyat, gəmiçilik və kommunikasiyalar naziri Əhməd Arslan məlumat verib.

Yeni nəqliyyat layihəsinə əsasən, tikintisi nəzərdə tutulan iki yoldan ibarət dəmiryol xəttinin uzunluğu 224 kilometr olacaq.

Nazirin sözlərinə görə, bu xətt Bakı-Tbilisi-Qars dəmir yolu ilə birləşdiriləndən sonra Şərqdən Qərbə tərəf bütün Türkiyə ərazisindən keçən Qars-Kapıkule xəttinə, daha sonra Avropaya doğru uzanacaq.

Beləliklə, Kapıkule-Edirne-İstanbul-Eskişehir-Ankara-Yozqat-Sivas-Erzincan-Qars dəmir yolu İqdır əyalətindən keçməklə Azərbaycan və İran dəmir yollarına birləşdiriləcək.

Yeni dəmir yol xətti çəkilərkən sürəti saatda 160 kilometrədək olan qatarlardan istifadə etmək imkanı nəzərə alınacaq.

## “ŞİMAL-CƏNUB” NƏQLİYYAT DƏHLİZİ YÜKLƏRİN RUSİYADAN HİNDİSTANA ÇATDIRILMASI MÜDDƏTİNİ 30-40 FAİZ AZALDACAQ

***“Müxtəlif araşdırmalar nəticəsində sübut edilib ki, “Şimal-Cənub” nəqliyyat dəhlizindən istifadə edilməsi Rusiyadan yüklərin Hindistana və əks istiqamətdə çatdırılması müddətini 30-40 faiz azaltmağa imkan verəcək.”***




Hindistanın ticarət və sənaye naziri Sureş Prabxu bu sözləri RİA “Novosti” agentliyinə müsahibəsində söyləyib.

Nazir deyib: “Nəqliyyat dəhlizinin sınaq rejimində istifadəsi xərclərin təqribən 30 faiz azalmasını göstərib. Yükdaşımaların dəyərinin azaldılması və çatdırılma müddətinin qısaldılması şəklində ikiqat üstünük ticarət üçün əlverişli şərait yaradır”.

Cənub-Şərqi Asiya və körfəz ölkələrindən Şimali Avropaya yük daşınması üçün nəzərdə tutulan “Şimal-Cənub” nəqliyyat dəhlizi layihəsi çərçivəsində Azərbaycan, İran və Rusiya dəmir yollarının birləşdirilməsi planlaşdırılır. Birinci mərhələdə bu dəhliz vasitəsilə ildə 5 milyon ton yük daşınacaq, gələcəkdə isə bu göstəricinin on milyon tondan çox olacaq. Dəhlizin əsas üstünlüyü ondan ibarətdir ki, o, yüklərin çatdırılma müddətini əhəmiyyətli dərəcədə qısaltmağa imkan verəcək.

## TAP: İTALİYADA MİKROTUNELLƏRİN İNŞASI DAVAM EDİR

***Azərbaycan təbii qazını Avropaya daşıyacaq “Trans-Adriatik” (TAP) təbii qaz boru kəməri layihəsi üzrə İtaliyanın Puglia regionunda mikrotunellərin tikintisi davam edir.***

Trans Adriatic Pipeline

AZƏRTAC xəbər verir ki, bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb. Bildirilir ki, mikrotunellərin inşası zamanı ən son texnologiyalardan istifadə edilir və ətraf mühitə təsir ən aşağı səviyyədədir.

Ötən ay AZƏRTAC-a eksklüziv müsahibəsində TAP AG-nin prezidenti Valter Peeraer deyib ki, TAP qaz boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla ümumilikdə 73 faizi icra edilib: “TAP boru kəmərinin inşası üzrə işlər qrafik üzrə gedir. Biz plan üzrə bütün işlərimizi uğurla davam etdiririk. İki il əvvəl başladığımız layihə boru kəmərinin keçdiyi bütün ölkələrdə - Albaniya, İtaliya və Yunanıstan ərazisində uğurla icra olunur. Demək olar ki, işlərin 73 faizi icra edilib. Albaniya və Yunanıstan ərazisində TAP layihəsinin icrası da uğurla davam etdirilir. Hər iki dövlətin hökumətləri tərəfindən bu istiqamətdə görülən işləri yüksək qiymətləndiririk. TAP-ın Adriatik dənizindən keçəcək hissəsi isə 2019-cu ilədək başa çatdırılacaq”.

Xatırladaq ki, ilin əvvəlində Avropa İnvestisiya Bankının İdarə Heyəti Yunanıstan, Albaniya və Adriatik dənizindən keçərək İtaliyanın təbii qaz şəbəkəsinə qoşulmaq üçün Cənubi İtaliya sahillərinə çıxan TAP boru kəməri üçün 1,5 milyard avro məbləğində maliyyələşdirməni təsdiqləyib. Bank bildirir ki, layihə Cənub Qaz Dəhlizinin bir hissəsidir və Avropa İttifaqının enerji siyasəti çərçivəsində strateji cəhətdən əhəmiyyətli bir komponent kimi, Avropa Şurası, Avropa Komissiyası və Avropa Parlamenti tərəfindən müəyyən edilən təşəbbüsdür.

Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan TAP qaz boru kəmərinin təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz-2” yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, “Şahdəniz-2”dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. TAP Avropa İttifaqı (Aİ) üçün prioritet enerji layihələrindən olan Cənub Qaz Dəhlizinin bir seqmentini təşkil edir. İndiyədək “Cənub Qaz Dəhlizi” layihəsinə tərəfdaşlarla birgə 30 milyard dollardan çox vəsait xərclənib. Həmin vəsaitin 2,9 milyard avrosu TAP layihəsinə sərf olunub.

Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən – Yunanıstan, Albaniya və İtaliyadan keçir. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. Layihənin ümumi dəyəri 4,5 milyard avro qiymətləndirilir. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. “Şahdəniz” konsorsiumu ilk qaz satışını 2018-ci ildə Türkiyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə 2020-ci ilə planlaşdırılır.

TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Boru kəməri buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. TAP burada “Snam Rete Gas” şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

TAP-ın Yunanıstandan keçəcək 550 kilometrlik hissəsində 538 kilometrlik ərazi tamamilə təmizlənib və qiymətləndirilib. Təxminən 524 kilometr boru marşrut xətti boyunca düzülüb. Bu ölkədə boruların 506 kilometrdən çoxu qaynaq edilib. 428 kilometr boru torpağa basdırılıb və təxminən 320 kilometr ərazi tamamilə əvvəlki vəziyyətinə gətirilib. TAP-ın Albaniyadan keçəcək 215 kilometrlik hissəsində isə təxminən 187 kilometrlik ərazi təmizlənib və qiymətləndirilib, 181 kilometr boru marşrut xətti boyunca düzülüb. Boruların 177 kilometri qaynaqlanıb və onların təxminən 158 kilometri torpağa basdırılıb. Təxminən 119 kilometr ərazi tamamilə əvvəlki vəziyyətinə gətirilib. Beləliklə boru kəmərinin ümumilikdə 765 kilometrlik Yunanıstan və Albaniya hissəsində 725 kilometrlik ərazi, yəni bu marşrutun 95 faizi tamamilə təmizlənib və qiymətləndirilib. Yunanıstan və Albaniyada boruların 89 faizi qaynaq edilib. Bu marşrut üzrə boruların ümumilikdə 77 faizi torpağa basdırılıb. Yunanıstan və Albaniya marşrutunda torpaq örtüyünün 59 faizi əvvəlki vəziyyətinə gətirilib.

Boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşasına 2017-ci ilin birinci yarısında başlanılıb və işlər qrafik üzrə davam etdirilir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi aparılır. Ölçmə stansiyasındakı işlərə də ötən ilin birinci rübündə başlanılıb. Kompressor və ölçmə stansiyalarının mühəndislik, təchizat və tikintisi (EPC) üzrə podratçı - İtaliyanın “Renco S.p.A” və Yunanıstanın “Terna S.A.” birgə müəssisəsi hər 3 stansiyada beton və torpaq işlərini, eləcə də qazma və giriş yollarının tikintisini tamamlayıb. Üç turbo kompressor paketi artıq Yunanıstana çatdırılıb və onlar Kipoidəki stansiyasında quraşdırılıb. Ötən ilin dekabrında Kipoidəki kompressor stansiyasında boruların quraşdırılması və qaynağı işlərinə start verilib. Hər 3 stansiya üçün kənar boru istehsalına da başlanılıb. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən iki il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. Təxminən 6 ay müddətində aparılacaq bu əhatəli yoxlamalar yeni qurğuların tam işlək, eləcə də təbii qazın nəqli üçün təhlükəsiz və hazır olub-olmadığını göstərəcək. TAP qaz boru kəməri üçün lazım olan turbo kompressorlar isə “Siemens” şirkəti tərəfindən istehsal edilib.

Layihə İtaliyada da qrafik üzrə irəliləyir. 2015-ci il mayın 20-də İtaliyanın İqtisadiyyat Nazirliyi tərəfindən verilən əsas icazə sənədinə uyğun olaraq TAP-ın inşasına dair digər ikinci dərəcəli icazələrin alınması üzrə işlər davam etdirilir. TAP-ın 8 kilometrlik İtaliya hissəsinin inşası çərçivəsində ötən ilin mart-iyul aylarında mikrotunelin tikiləcəyi ərazidən zeytun ağacları çıxarılıb. Həmin ağaclar yaxınlıqdakı bir uşaq bağçasına (“Masseria del Capitano”) köçürülüb. Ağaclar burada təmənnasız saxlanılacaq və onlara müvafiq qulluq göstəriləcək. Boru kəmərinin tikintisi başa çatdıqdan sonra həmin zeytun ağacları öz yerlərinə geri qaytarılacaq. Bundan başqa, TAP-ın dəniz hissəsinin inşasında istifadə olunacaq boruların sonuncu partiyası da keçən il sentyabrın 3-6-da İtaliyanın Brindisi bölgəsində boşaldılıb.

TAP-ın Adriatik dənizindən keçəcək 105 kilometrlik hissəsinin tikintisini həyata keçirəcək İtaliyanın “Saipem S.p.A” şirkəti hazırda mikrotunel sahəsində çalışır. Burada müvəqqəti yol və sahə hazırlığı tamamlanıb. TAP-ın podratçısı hazırda mikrotunelin tikintisini həyata keçirmək üçün çuxurun qazılması işlərini görür. Boru kəmərinin dəniz hissəsi 2018-2019-cu illərdə inşa ediləcək. Boru kəmərinin Adriatik dənizindən keçəcək 36 düymlük hissəsi Albaniya və İtaliyanın cənub sahili arasında dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə və təqribən 105 kilometr uzunluğunda olacaq. “Saipem S.p.A” şirkəti mikrotunel daxil olmaqla, Albaniya və İtaliyada tikinti işlərini, dəniz boru kəmərinin quraşdırılmasını, fiber-optik kabel təchizatını və quraşdırılmasını həyata keçirəcək. İzolyasiya edilmiş 36 düymlük borular və digər qurğular isə TAP tərəfindən təmin olunacaq.

TAP layihəsi Avropa enerji bazarı üçün son illər irəli sürülən ən önəmli layihələrdəndir. Layihənin strateji əhəmiyyəti onun enerji təminatının təhlükəsizliyini, mənbələrin və marşrutların şaxələndirilməsini əks etdirməsindən irəli gəlir. Bu amillər hazırda enerji tələbatının yarıdan çoxunu xarici mənbələr hesabına təmin edən və daxili enerji istehsalında nəzərəçarpacaq qıtlıq yaşayan Avropa İttifaqı üçün olduqca vacibdir. Bu baxımdan TAP Avropanın enerji siyasətində mühüm əhəmiyyət kəsb edir. TAP-ın keçdiyi 3 ölkədə işçilər 65 milyon kilometrədək yol qət edib və təxminən 25 milyon nəfər-saat iş görülüb. Boru kəməri 2020-ci ildə Azərbaycanın “Şahdəniz-2” yatağından ilk qazı almağa hazır olacaq.

İndiyədək Cənub Qaz Dəhlizinə daxil olan layihələrdə “Cənub Qaz Dəhlizi” QSC-nin mülkiyyətində olan iştirak paylarının maliyyələşdirilməsinə qoyulan 9 milyard dollar vəsaitin 0,7 milyard dolları TAP layihəsinə xərclənib. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), “Snam S.p.A.” (20 faiz), “Fluxys” (19 faiz), “Enagás” (16 faiz) və “Axpo” (5 faiz).

# BÜTÜN TƏDBİRLƏR "ÜMUMDÜNYA ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ GÜNÜ"NƏ HƏSR OLUNMUŞDU








***XIX əsrin sonlarından elmi-texniki tərəqqi, sənayenin sürətli inkişafı nəticəsində ətraf mühitə edilən mənfi təsirlər XX əsrin ortalarında özünü daha qabarıq göstərirdi. Artıq insanlar təbiətə münasibətlərini dəyişməyəcəkləri, onun ehtiyatlarından səmərəsiz istifadəyə son qoymayacaqları təqdirdə bu prosesin onların özlərinə qarşı çevriləcəyini və arzuolunmaz nəticələrə gətirib çıxaracağını anladılar.***

Bu problemin gələcəkdə qlobal kataklizmlərə səbəb olacağını başa düşən alimlər, ekoloqlar etiraz səslərini ucaltmağa, həyəcan təbili çalmağa başladılar. Beynəlxalq təşkilatlar, tərəqqipərvər dünya ictimaiyyəti məsələni daim diqqət mərkəzində saxlamağa çalışırdı.

Problemin kəskinliyini, əhali arasında ekoloji şüurun yüksəldilməsinin, ətraf mühitin mühafizəsi problemlərinə diqqətin yönəldilməsinin vacibliyini nəzərə alaraq 1972-ci ildə Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının İsveçin paytaxtı Stokholm şəhərində keçirilən iclasında 5 iyunun "Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü" kimi qeyd olunmasına qərar [A/RES/2994 (XXVII)] verilib. O vaxtdan bütün dünyada, o cümlədən Azərbaycanda bu gün qeyd olunur.

Bu il də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində ətraf mühitin mühafizəsinə həsr olunmuş müxtəlif tədbirlər keçirilmişdir. Belə ki, Xəzər Dəniz Neft və Dəniz Nəqliyyat Donanmalarında, "Bibiheybət" Gəmi Təmiri və "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodlarında, habelə İstehsalat Xidmətləri İdarəsində iməciliklər və toplantılar keçirilib.

İməciliklərdə təmizlik-abadlıq işləri görülüb, yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

Dəniz Nəqliyyat Donanmasında keçirilən toplantını giriş sözü ilə DND-nin Əməyin mühafizəsi, təhlükəsizlik texnikası və ekologiya şöbəsinin (ƏMTTEŞ) rəisi Rüstəm Ağayev açıb. O, ətraf mühitin mühafizəsi problemlərinə diqqətin yönəldilməsinin vacibliyi barədə ətraflı söz açıb. Cəmiyyətin KSƏTƏMM departamentinin ətraf mühitin mühafizəsi (ƏMM) üzrə aparıcı mühəndisi Sabir Kərimzadə 5 iyun – "Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü"nün qəbul edilməsinin səbəbləri, ekoloji yönümlü beynəlxalq, milli qanunvericilik aktları və Gəmiçilikdə ekoloji idarəetmə" mövzusunda məruzə ilə çıxış edib. DND-nin Əməyin mühafizəsi, təhlükəsizlik texnikası və ekologiya şöbəsinin ƏMM üzrə mühəndisi Abbas Məmmədovun təqdim etdiyi məruzə isə DND-nin gəmiləri və sahil obyektlərində həyata keçirilən və yaxın gələcəkdə icrası nəzərdə tutulan ekoloji yönümlü tədbirlərə həsr olunub.

Məruzələr böyük maraqla dinlənilib, fikir mübadiləsi aparılıb, iştirakçıları düşündürən suallar ətraflı cavablandırılıb.

Toplantının sonunda ekoloji mövzuda videoçarx nümayiş etdirilib.

***KSƏTƏMM departamenti***

## BAKININ ƏHALİSİNİN SAYI 16,5 MİN NƏFƏR ARTIB



***İlin əvvəlindən Bakı şəhərinin əhalisinin sayı 16,5 min nəfər artaraq 2018-ci il aprel ayının 1-i vəziyyətinə 2 milyon 266 min nəfərə çatıb.***

Bakı Şəhər Statistika İdarəsindən verilən məlumata görə, əhalinin 49,7 faizini kişilər, 50,3 faizini qadınlar təşkil edir. Əhalinin bir kvadratkilometrə düşən sayı 1058 nəfər olub.

Cari ilin yanvar-mart ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən Bakı şəhərində 7 min 268 doğulan körpə qeydə alınıb və bu göstərici əhalinin hər 1000 nəfərinə 13,0 təşkil edir. Doğulan körpələrin 78-i əkiz, 2-si üçəmdir. Yeni doğulan körpələr arasında qızların xüsusi çəkisi 47,1 faiz təşkil edərək hazırda hər 100 doğulan qıza 113 oğlan düşür (bioloji norma 105-107 təşkil edir).

Birinci rübdə Bakı şəhərində 3 min 576 ölüm halı qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi eyni qalıb (6,4).

## AZƏRBAYCANIN 1,3 TRİLYON KUBMETRƏDƏK TƏSDİQLƏNMİŞ TƏBİİ QAZ EHTİYATLARI VAR



***Ötən ilin sonuna Azərbaycanın təsdiq edilmiş təbii qaz ehtiyatları 1 trilyon 277 milyard kubmetr olub.***

Bu barədə Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) illik statistik hesabatında deyilir.

2017-ci ilin sonuna olan məlumata görə, Xəzəryanı ölkələrdən Rusiyanın təsdiqlənmiş qaz ehtiyatları 50 trilyon 617 milyard kubmetr, İranın 33 trilyon 810 milyard kubmetr, Türkmənistanın 9 trilyon 838 milyard kubmetr, Qazaxıstanın isə 1 trilyon 898 milyard kubmetr təşkil edib.

Təsdiq olunmuş təbii qaz ehtiyatlarına görə dünyada ilk sırada Rusiya (50,6 trilyon kubmetr), ikinci yerdə İran (33,8 trilyon kubmetr), üçüncü sırada 23 trilyon 861 milyard kubmetrlə Qətər, dördüncü yerdə Türkmənistan (9,8 trilyon kubmetr), beşinci sırada isə 9 trilyon 67 milyard kubmetr ilə ABŞ qərarlaşıb. Dünyada təsdiqlənmiş qaz ehtiyatları ən az olan ölkə 5 milyard kubmetrlə Çilidir.

Dünya üzrə təsdiq edilmiş qaz ehtiyatları keçən ilin sonuna 199 trilyon 444 milyard kubmetr olub. Bu həcmin 48,1 faizi, yəni 95 trilyon 951 milyard kubmetri OPEC-ə üzv ölkələrdədir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) üzrə təsdiq olunmuş təbii qaz ehtiyatları 18 trilyon 793 milyard klubmetr, keçmiş Sovet İttifaqına üzv ölkələrin ehtiyatları isə 65 trilyon 519 milyard kubmetrdir.



## DÜNYA ÜZRƏ TƏSDİQLƏNMİŞ XAM NEFT EHTİYATLARI

***Ötən ilin sonuna Azərbaycanın təsdiq edilmiş xam neft ehtiyatları 7 milyard barrel təşkil edib.***

Bu barədə Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) illik statistik hesabatında deyilir.

2017-ci ilin sonuna olan məlumata görə, Xəzəryanı ölkələrdən İranın təsdiqlənmiş neft ehtiyatları 155 milyard 600 milyon barrel, Rusiyanın 80 milyard barrel, Qazaxıstanın 30 milyard barrel, Türkmənistanın isə 600 milyon barrel olub.

Dünyada təsdiq olunmuş neft ehtiyatlarına görə ilk sırada 302 milyard 809 milyon barrel ilə Venesuela, ikinci yerdə 266 milyard 260 milyon barrellə Səudiyyə Ərəbistanı, üçüncü sırada İran (155,6 milyard barrel), dördüncü yerdə 147 milyard 223 milyon barrel ilə İraq, beşinci sırada isə 101 milyard 500 milyon barrellə Küveyt qərarlaşıb. Dünyada təsdiqlənmiş neft ehtiyatları ən az olan ölkə 198 milyon barrel ilə Belarusdur.

Dünya üzrə təsdiq edilmiş xam neft ehtiyatları 1 trilyon 482 milyard 773 milyon barrel olub. Bu həcmin 81,9 faizi, yəni 1 trilyon 214 milyard 209 milyon barreli OPEC-ə üzv ölkələrdədir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) üzrə təsdiq olunmuş neft ehtiyatları 57 milyard 769 milyon barrel, keçmiş Sovet İttifaqı ölkələrinin ehtiyatları isə 118 milyard 886 milyon barreldir.

## DƏNİZ EHTİYATLARININ ÜMUMİ VƏZİYYƏTİ İLDƏN-İLƏ PİSLƏŞİR

***Dəniz məhsullarının həddindən artıq istismarı və qeyri-qanuni balıq ovu ildə 23 milyard dollar məbləğində iqtisadi itkilərə gətirib çıxarır. Əldə edilən balığın beşdəbiri qanunsuz yolla tutulur.***



BMT-nin xəbərlər saytının məlumatına görə, bu barədə qurumun Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) hər il iyunun 5-də qeyd edilən Qanunsuz və tənzimlənməyən balıq ovuna qarşı beynəlxalq mübarizə günü ilə əlaqədar bəyanatında bildirilir.

FAO-nun hesabatına görə, dünya üzrə ildə adambaşına düşən balıq istehlakı 20 kiloqramı keçib. Hələ 1960-1970-ci illərdə bir adam ildə 10 kiloqram balıq istehlak edirdi. Dəniz məhsulları sektorunun uğurlu inkişafı balığa çox sürətlə artan tələbatı ödəməyə və resursların yerini doldurmağa kömək edib. Bununla yanaşı, tələbatın artımı həddindən artıq balıq ovuna və brakonyerliyin çoxalmasına gətirib çıxarır. Nəticədə bizim masaları bəzəyən təxminən 11-26 milyon ton balıq, - bu isə dünya üzrə tutulan balıqların 20 faizi deməkdir, - brakonyerlər tərəfindən və ya balıq vətəgələrinin qaydalarının pozulması nəticəsində əldə edilir.

Dəniz ehtiyatlarının ümumi vəziyyəti ildən-ilə pisləşir. Hazırda göl, çay, dəniz və okeanlarda 1974-cü illə müqayisədə 3 dəfə artıq balıq tutulur. Balıq ehtiyatlarının bu cür amansız istismarı ona gətirib çıxarır ki, balıq istehsalı hətta zəruri minimal dərəcəyə çatmır, həmçinin sualtı aləmin bioloji tarazlığı pozulur.

FAO ekspertləri bu vəziyyətdən narahatdırlar. Onlar bütün dövlətləri balıq vətəgələrini nəzarətdə saxlamağa, qiymətli balıq ehtiyatlarının müdafiəsi və qorunması ilə bağlı tədbirlər görməyə çağırıblar.




## PRAKTİKİ TƏLİM MƏŞQLƏRİ KEÇİRİLİB

***Hərbi Dəniz Qüvvələrinin praktiki təlim məşqləri keçirilib.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, məşqlərin ilkin mərhələsində gəmi qruplarının, hissə və bölmələrin cəmləşmə rayonlarına çıxışı, şəxsi heyətin üzməyə hazırlanması və döyüş uzlaşması tədbirləri icra olunub. Sonrakı mərhələlərdə gəmilər şərti düşmənin üzən minaları, dəniz və hava hədəflərini dəqiq atəşlə məhv ediblər.

Təlim məşqlərinə cəlb olunan şəxsi heyət qarşıya qoyulan bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

## PLANETİMİZİN 361 MİLYON KVADRATKİLOMETR SAHƏSİ DÖRD OKEAN ARASINDA BÖLÜNÜB




***8 iyun-Dünya Okeanlar Gününün qeyd edilmə tarixi 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən BMT-nin "Ətraf mühit və inkişaf" konfransında elan olunub. Günün qeyd edilməsində əsas məqsəd bütün diqqəti bəşəriyyətin həyatında vacib rol oynayan nəhəng su hövzələrinin mühafizəsinə yönəltməkdir. Dünya Okeanlar Günü bir çox Avropa, Cənub-Şərqi Asiya, Latın Amerikası, Avstraliya, Afrika ölkələrində, eləcə də Cənubi Asiya və Uzaq Şərqdə bayram kimi qeyd olunur.***

Hər il bir mövzunu əhatə edən Dünya Okeanlar Gününün builki şüarı "Plastik çirklənmənin qarşısının alınması və sağlam okeanlar naminə qərarların təşviq edilməsi"dir.

Qeyd edək ki, hər il okeanlara 8 milyon ton plastik kütlə atılır ki, bu da onun ekosisteminə 8 milyard funt sterlinq ziyan vurur.

Yer kürəsinin 70 faizini okeanlar təşkil edir. Planetimizin 361 milyon kvadratkilometr sahəsi dörd okean arasında bölünüb–Sakit, Atlantik, Hind və Şimal Buzlu.

Nəfəs aldığımız oksigenin çoxu okeanlar tərəfindən istehsal edilir. Okeanlar vasitəsilə karbon-dioksid emissiyaları absorbsiya olunur, canlılar qidalarının əksər hissəsini buradan alır, iqlimi tənzimlənir. Bundan əlavə okeanlar turizm, balıqçılıq və iqtisadiyyatın inkişaf etdirilməsində əhəmiyyətli rol oynayır.

Təəssüf ki, antropogen təsirlər, brakonyerlik, qeyri-qanuni balıqçılıq, su hövzələrinin çirkləndirilməsi və asidifikasiyası, iqlim dəyişkənliyi dünyanın okean və dənizləri üçün ciddi təhlükələrə səbəb olub.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ - 100

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN NEFT STRATEGİYASI

***AZƏRTAC-ın xahişi ilə Vergilər Nazirliyindən Azərbaycan Xalq Cümhuriyyəti illərində respublikada neft sənayesi strategiyası sahəsində hökumətin apardığı siyasəti və həyata keçirilən tədbirləri şərh ediblər.***

Azərbaycan Xalq Cümhuriyyəti dövründə neft sənayesi iqtisadiyyatın aparıcı sahəsi olduğu üçün ölkə parlamenti və hökumət neft hasilatı və emalının mövcud durumunu vaxtaşırı təhlil edir, dünya neft bazarında baş verən hadisələri ciddi araşdırırdı.

Cümhuriyyətin yaradıcıları dərk edirdilər ki, təbii sərvət iqtisadi inkişaf üçün maddi baza rolunu oynasa da, ölkənin gələcək inkişafının məhz bu amildən asılılığı ciddi problemlərə gətirib çıxara bilər. Lakin o dövrdə ölkə iqtisadiyyatının bütünlüklə neftin ixracına bağlılığı, nəyin bahasına olursa-olsun, bu sahənin dirçəldilməsini zəruri edirdi.

Vəziyyət isə heç də ürəkaçan deyildi: neftin əsas istehlakçısı olan Rusiyada vətəndaş müharibəsi başlandığı üçün Azərbaycanın bu bazarı bağlanmış, ixrac sürətlə azalmış, nəticədə "qara qızıl"ın qiyməti son dərəcə aşağı düşmüşdü. Belə bir şəraitdə iqtisadiyyatı bərpa etmək, əhalinin sosial rifahını yaxşılaşdırmaq üçün hökumət, böyük çətinliklərə baxmayaraq, neft sənayesinin inkişafına xüsusi diqqət yetirirdi...



1918-ci il oktyabr ayının 5-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti neft sənayesinin milliləşdirilməsi haqqında xüsusi dekretlə neft mədənlərini, Xəzər ticarət donanmasını, zavod və emalatxanaları bütünlüklə neft sahibkarlarına qaytardı, istehsal edilmiş neftin üçdə iki hissəsini onlara verdi, qalan hissəsini isə öz sərəncamında saxladı. Həmin dekretlə Azərbaycan neftinin Rusiyaya daşınması da qadağan olundu. Beləliklə, həyata keçirilən ciddi tədbirlər nəticəsində 1919-cu ildə ölkənin neft ehtiyatı üç dəfə artaraq, 1920-ci ilin əvvəlində 300 milyon puda çatdı. Yaranmış əlverişli vəziyyət hökumətə qonşu dövlətlərlə sərbəst neft ticarəti aparmaq imkanı verdi.

Həmin sənəddə neft sənayesi üzərində dövlət nəzarətinin tətbiq edilməsi, neft və neft məhsullarının Gürcüstanın Batumi dəniz limanına daşınması və satılması, mal mübadiləsinə icazə verilməsi ilə bağlı müddəalar təsbit edilmişdi.

Neft sənayesinin sürətli inkişafını təmin etmək üçün infrastrukturun təkmilləşdirilməsi tələb olunurdu. Yeni istehsal sahələrinin yaradılması, əlavə quyuların qazılması, hasilatın artırılması zəruri idi. Bütün bu işlər neftçıxarma və neft emalı sənayesinə xidmət edən maşınqayırma və təmir müəssisələrinin təşkilindən başlandı. Görülən tədbirlər çərçivəsində neftçıxarma, neft emalı, neft avadanlıqlarının təmiri və istehsalına xüsusi diqqət yetirilirdi. Neft mərkəzi hesab edilən Bakı şəhərində əhalinin tələbatını ödəmək məqsədilə yüngül və yeyinti sənayesinin, yükdaşıma və şəhər nəqliyyatı təsərrüfatlarının inkişafı xeyli sürətləndirildi.

Həmin dövrdə Bakıda mövcud olan 165 müstəqil neft firmasının özünəməxsus mədənləri, neft emalı zavodları, boru kəmərləri və anbarları vardı. Neft sənayesinin inkişafı ilə əlaqədar olaraq artmaqda olan idxal-ixrac əməliyyatları və ödənişləri tənzimləmək üçün 1919-cu il sentyabrın 30-da Bakıda Azərbaycan Dövlət Bankı yaradıldı və kredit bankları fəaliyyətə başladı.

1918-ci ildə Azərbaycanda neft emalının həcmi təxminən 200 min tona endiyindən xaricə neft, əsasən, xammal şəklində ixrac edilirdi. Bu dövrdə Bakının neft təsərrüfatında fəaliyyət göstərən şirkətlər müxtəlif transmilli korporasiyalarda birləşdilər: neft hasilatı, emalı və ixracı ilə Nobel qardaşları və Rusiyanın neft şirkəti məşğul olurdu; neft hasilatı və neftayırma sahələrinin avadanlıqlarla təchizatını ingilis-holland "Şell" tresti yerinə yetirildi. 1920-ci ilin yazında Azərbaycanda hasil edilmiş neft ehtiyatları artıq 300 milyon puda çatdırıldı.

Həmin dövrdə gənc respublikanın dünya ölkələri tərəfindən tanınması, müstəqilliyinin möhkəmləndirilməsi, sosial və iqtisadi inkişafının təmin edilməsi, müdafiə qabiliyyətinin gücləndirilməsi təxirəsalınmaz strateji vəzifələr kimi xüsusi önəm daşıyırdı. Bu vəzifələrin qısa müddətdə həyata keçirilməsi üçün hökumət Gürcüstan, Türkiyə, İtaliya və Amerika ilə iqtisadi-ticarət əlaqələri yaradır, nağd pul və barter üsulu ilə özünə lazım olan ərzaq məhsulları, hərbi texnika, sənaye və aqrar bölmə üçün müasir avadanlıqları alıb ölkəyə gətirirdi. Fransa və İtaliya ilə aparılan danışıqlar nəticəsində neft məhsulları mübadiləsi yolu ilə ilk dəfə olaraq ölkəyə yüz parovoz, 2000 sistern, 500 vaqon, 1,5 milyon pud buğda və 1 milyon pud şəkər idxal edildi. Azərbaycanın iqtisadi-ticarət əlaqələri yaratdığı ölkələr arasında Gürcüstan və İtaliya mühüm yer tuturdu.

Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlətçilik ənənələri ilə yanaşı, onun neft siyasəti sahəsindəki addımları müasir Azərbaycan üçün də maraqlıdır. Ulu öndər Heydər Əliyev deyirdi: "Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır".

# DƏNİZLƏRİ VƏ ÜRƏKLƏRİ FƏTH ETMƏK İSTƏYƏN GƏMİ SÜRÜCÜSÜ



***Deyirlər dəniz və musiqi bir-birinə çox yaxındır. Həmsöhbətimiz Aref Kemal həm dənizçi, həm də musiqiçi kimi bu deyimin həqiqətdən uzaq olmadığını sübut edən kəslərdəndir.***

Hər iki peşənin vurğununun uşaqlıqdan dənizçiliyə və müğənniliyə böyük marağı olub. Artıq 10 ildən çoxdur ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasının gəmilərində gəmi sürücüsü işləyən Aref 2013-cü ildən həm də müğənniliklə məşğuldur. Deyir ki, dənizçiliyin və müğənniliyin oxşar tərəfləri çoxdur. Hər iki peşə insandan istedad və ürək tələb edir.

-Dənizdə çalışan adam tez-tez sərt dalğalarla üzləşir,-deyir.- Belə çətin vəziyyətlərdən üzüağ çıxmaq üçün təkcə peşəkarlıq yox, istedad və ürək də tələb olunur. Əks halda, fırtınaya qalib gəlmək mümkün deyil. Müğənnilik də eyni ilə belədir. Xüsusi istedada və böyük ürəyə sahib olmayan ifaçı, nə qədər çalışsa da, uğur qazana bilməyəcək.

Bir yandan dənizçilik, bir yandan müğənnilik Aref Kemala qanad verir. O deyir:

- Mən sevərkən, ayrılarkən, nəyisə ümidlə gözləyərkən – hər halımda limanlara üz tuturam. Ucu-bucağı görünməyən dənizi seyr etməklə mənəvi rahatlıq tapıram. Uzaqlardan gələn, qəlbə sığal çəkən dalğalar sanki nəğmə oxuyur. Bu nəğmələr insanı ifaçılığa daha da həvəsləndirir.

Peşəkarlıq müsahibimiz üçün ən vacib amillərdəndir. Bunun üçün daim üzərində işləyir, kamilliyə can atır.

Aref Azərbaycan Dəniz Balıq Sənayesi Kollecini bitirib. Orada gəmi sürücülüyü ixtisası üzrə təhsil alıb. Hazırda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasının balansında olan "Atlet-5"gəmisində kapitanın 2-ci köməkçisi işləyir.



Onun musiqi təhsili də var. 2013-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müsiqi sənəti fakültəsinə qəbul olub. Respublikanın xalq artisti Nazpəri Dostəliyevadan vokal ifaçılığının sirlərini öyrənib.

"Uşaqlıqdan korifey sənətkarları – Mirzə Babayevi, Şövkət Ələkbərovanı dinləmişəm, hətta onların ifalarını gizli təqlid etmişəm. Əvvəllər utanırdım, elə bilirdim alınmır. Amma bu sahədə təhsil almağa başladığım dövrdən özümə inamım artdı. İndiyədək bir çox müsabiqələrə qatılmışam. "Azərbaycanın səsi" layihəsində iştirakçı olmuşam. Gələcəkdə "O səs Türkiyə" yarışmasında da özümü sınamağı düşünürəm. İspan, italyan, ingilis dillərində də mahnılar ifa edirəm".

Aref Kemalın bütün ifaları özünəməxsusluğu ilə seçilir. Amma dostları və həmkarları onun ifasında "Limanlar" mahnısını daha çox sevirlər. Elə Arefin özünə də bu ifası ayrı bir zövq verir.

"Bu mahnını unudulmaz sənətkarımız Mirzə Babayevin ifasında eşitmişəm və çox bəyənmişəm. Onu hər dəfə oxuduğum zaman kövrəlirəm. Necə deyərlər, "Limanlar"ın musiqisi ruhuma çox yaxındır. Bu mahnıya obraz lazım deyil. Mahnı özü dinləyiciyə hər şeyi deyir".

Aref Kemal həm dənizçiliyi, həm də müğənniliyi öz istəyi ilə seçib. Ona görə də heç biri ilə yollarını ayırmaq fikrində deyil. Əksinə, ikisini bir arada davam etdirmək, dənizləri və ürəkləri fəth etmək istəyir.

***Rövşən Abdurəhmanov***

# DÜNYA ÖLKƏLƏRİNİN YOLLARIN KEYFİYYƏTİ ÜZRƏ REYTİNQİ AÇIQLANIB





***"Qlobal rəqabətqabiliyyətlilik 2017-2018" indeksinin versiyasına əsasən dünya ölkələrinin yollar üzrə siyahısı tərtib olunub.***

Dünyanın 137 ölkəsinin daxil olduğu siyahıda yolların keyfiyyəti 7 ballıq şkala ilə qiymətləndirilib. Bununla yanaşı, ölkələrdən heç biri ən yüksək balı toplaya bilməyib.

Dünyanın ən pis yolları cəmi 2 bal yığa bilən Mavritaniyada qeydə alınıb. Onun ardınca hər biri 2,1 bal toplayan Konqo Demokratik Respublikası və Haiti gəlir. Madaqaskar və Qvineya hər birinə 2,2 balla dördüncü və beşinci yerləri bölüşür. Sıyahıda növbəti yerlərin sahibi Yəmənə 2,3 bal, Paraqvay və Ukraynanın hər birinə 2,4 bal, Mozambik və Moldovanın hər birinə isə 2,5 bal verilib.

Birləşmiş Ərəb Əmirlikləri (6,4 bal), Sinqapur, İsveçrə (hər biri 6,3 bal), Honkonq (6,2 bal), Niderland, Yaponiya (hər biri 6,1 bal), Fransa, Portuqaliya və Avstriya (hər biri 6 bal), həmçinin ABŞ (5,7 bal) ən yaxşı yolları olan ölkələr kimi reytinqin ilk sıralarında qərarlaşır.

Azərbaycan bütün postsovet ölkələrini qabaqlayaraq siyahıda 36-cı yeri tutur. Yaxın qonşularımız olan Türkiyə 30-cu, İran 71-ci, Gürcüstan 82-ci, Ermənistan 85-ci, Rusiya 114-cü yerdədir.

# 68 NƏFƏRİ XİLAS ETMƏK MÜMKÜN OLSA DA...



***Xilasedicilər indiyə qədər Tunis sahillərində qanunsuz mühacirləri daşıyan gəminin qəzaya uğraması nəticəsində həlak olan 74 nəfərin cəsədini aşkarlayıblar.***

Bu barədə məlumat Tunisin Daxili İşlər Nazirliyi tərəfindən yayılıb.

Xatırladaq ki, iyunun 4-nə keçən gecə Tunis sahilləri yaxınlığında böyük gəmi qəzası baş verib. Göyərtəsində təxminən 180 nəfər qanunsuz mühaciri daşıyan balıqçı gəmisi Tunisin Sfaks liman şəhərindən 16 dəniz mili məsafəsində batıb. Hadisə yerinə göndərilən xilasedicilər 68 nəfəri xilas etməyə müvəffəq olub.

Tunis prokurorluğu insan ölümünə səbəb olan qanunsuz xidmət maddəsi üzrə təhqiqata başlayıb. Hadisə ilə əlaqədar Tunisin daxili işlər naziri Lütfi İbrahim və nazirliyin gəminin dənizə çıxdığı yerdə xidmət göstərən 10 yerli əməkdaşı istefaya göndərilib.

# YƏMƏN SAHİLLƏRİNDƏ GƏMİ QƏZASI NƏTİCƏSİNDƏ 46 MİQRANT BOĞULUB



***Somalidən Yəmənə getməyə çalışan azı 46 miqrant gəminin batması nəticəsində boğularaq həlak olub.***

"BBC Türk" xəbər verir ki, pis hava şəraiti səbəbindən daha 16 nəfərin də itkin düşdüyü bildirilir.

Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına görə, gəmi iyunun 6-da Aden Körfəzində batıb. Ölənlərin 37-sinin kişi, 9-nun qadın olduğu qeyd edilir. Miqrantlar Efiopiya vətəndaşlarıdır.

Qəzadan sağ qurtaran 100 miqrant isə Yəməndə və digər ölkələrdə iş tapmağa müvəffəq olacaqlarına ümid edir.

# BUZ DÖVRÜ İNSANLARININ AMERİKAYA KÖÇ ETMƏSİNƏ DAİR İZLƏR TAPILIB



***Alimlər buz dövrü insanlarının Asiyadan Sakit okean sahillərini keçərək Şimali Amerikaya köçünü göstərən izlər aşkar ediblər.***

"The New York Times" qəzeti xəbər verir ki, arxeoloqlar buz dövrü insanlarının Asiyadan Amerikaya səyahət macərasının iki marşrutla həyata keçdiyini ehtimal edirlər: Birincisi, Alyaskadan keçməklə materikin içərisinə hərəkət etmək, ikincisi isə Sakit okean boyu cənub sahillərinə çatmaq. Bu fərziyyələrə son qoyan tapıntı Britaniya Kolumbiyasındakı adada aşkar edilən və 13 min il əvvələ aid olduğu bildirilən nəhəng ayaq izləridir. İndi geoloqlar Alyaskanın şimal-şərqindəki adalarda 17 min il əvvəl buzlaşmaya məruz qalmayan və ilk insanların səyahəti üçün əlverişli olan yol aşkar ediblər. Buffalo Universitetinin əməkdaşı Alia Lesnek bildirib ki, Asiyadan Amerikanın şimalına köç edənlər sahilboyu marşrutla hərəkət ediblər. "Science Advantage" jurnalında dərc edilən məqalədə də bu ehtimalın düzgün olduğu bildirilir.

2015-ci ilin yayında Alia Lesnek Alyaskanın şimal-şərqindəki Beyker adaşında ilk insanın nəhəng ayaq izlərini aşkar edib. Sonrakı araşdırmalar zamanı Aleksandr arxipelaqında da analoji izlər tapılıb. Laboratoriya analizlərinə görə, 15 min il əvvəl bu ərazilərdə buz təbəqəsi əriyib və insanların hərəkəti üçün əlverişli şərait yaranıb. Arxeoloji və genetik dəlillər də Amerikaya miqrasiya prosesinin də bu dövrə təsadüf etdiyini göstərib. Tədqiqatların rəhbəri Ceyson Braynerin sözlərinə görə, sahildəki mağaralardan tapılan və 16 min il əvvələ aid olan suiti sümükləri göstərir ki, bu ərazilərə köçən ilk insanlar yemək tapmaq imkanına da malik olublar.

Nyu-Meksiko Universitetinin alimi Ceyms Dikson isə arxeoloq və geoloqların birgə tədqiqatlarının nəticələrini ilk insanların Amerikaya köçü hipotezini gücləndirən elmi faktlar kimi dəyərləndirib.

# HƏR İL DÜNYADA PLASTİK KÜTLƏ QIRINTILARINI UDMASI NƏTİCƏSİNDƏ 100 MİN DƏNİZ HEYVANI VƏ 1 MİLYON DƏNİZ QUŞU HƏLAK OLUR



***Almaniyalı ekoloqlar Böyük Britaniyada başlayan plastik çubuqların qadağan edilməsi hərəkatını alqışlayırlar, amma plastik zibilin digər təhlükəli növləri olduğunu göstərirlər. Londonun ekoloji siyasətinə nəzərdə tutulan dəyişiklikləri Almaniya Təbiəti Mühafizə İttifaqında (NABU) belə şərh ediblər.***

Plastik zibil probleminə münasibətin radikal şəkildə dəyişməsi son həftələr təkcə Aİ-nin siyasi dairələrində deyil, Avropa cəmiyyətində də hiss olunur. Jurnalistlərin çoxu düşünür ki, 2017-ci ilin sonunda BBC-də yayımlanan "Mavi planet" televiziya serialı hərəkata emosional təkan verib. Dünyanın ən məşhur teleaparıcılarından və naturalistlərindən biri olan Devid Attenboro dəniz və okeanların çirkləndirilməsinin heyvanlar üçün dəhşətli nəticələrini nümayiş etdirib.

Ekspedisiyalar zamanı dünya okeanında ekoloji durumun pisləşməsinin şahidi olan ekoloq və alimlərin çoxsaylı dəlilləri də öz işini görüb. Bundan əlavə, Kosta-Rika sahilində tısbağanın burun deşiyindən plastik çubuğun çıxarılması barədə vaxtilə "YouTube"da yayımlanan klip yenidən populyarlaşmağa başlayıb. Zənnimizcə, hətta kiçik versiyası yalnız əsəbləri möhkəm olan adamların baxması üçün yararlı olan bu klip artıq milyonlarla baxış sayı toplayıb.

Nəhayət, hazırda ekologiyaya münasibətin dəyişməsi üçün uğurlu siyasi məqam yetişib.

Almaniya hökuməti plastik kütlədən hazırlanmış bəzi birdəfəlik məmulatın, o cümlədən kokteyl, pambıq və içmə çubuqlarının qadağan edilməsi üzərində çalışır. Qadağa 2019-cu ildə qüvvəyə minə bilər və hələlik yalnız AFR ərazisində qüvvədə olacaq.

Statistika narahat edir. ABŞ-ın "One Less Straw" ictimai təşəbbüsünün məlumatına görə, hər il dünyada plastik kütlə qırıntılarını udması nəticəsində 100 min dəniz heyvanı və 1 milyon dəniz quşu həlak olur. ABŞ-da təkcə bir gün ərzində tullanan bütün plastik çubuqların uzunluğu isə Yer kürəsinin perimetrindən 2,5 dəfə çoxdur.

***Vüqar Seyidov***

# DƏNİZ QUMU ÜZƏRİNDƏ GƏZMƏK FAYDALIDIR



***Yay fəslinin ən gözəl istirahət məkanlarından olan çimərlik mövsümü başlamaq ərəfəsindədir. Lakin çimərlik istirahət məkanı olmaqla yanaşı, həm də sağlamlıq və şəfa mənbəyidir.***

Bir sıra xəstəliklərin sağalmasında dəniz qumunun müalicəvi əhəmiyyəti var.

Mütəxəssislərin dediyinə görə, çimərlikdəki qum dənizdə çimmək və günəş vannası qəbul etmək qədər insan orqanizmi üçün faydalıdır. Dəniz qumu təbii pilinq təsiri göstərir. Hətta keçmişdə şahzadələr də təbii pilinq kimi yalnız dəniz qumundan istifadə edirdilər. Qum qulunc xəstəliyinə və miqrenə də müsbət təsir göstərir. İslanmış dəniz qumunda gəzmək qan damarlarının genişlənməsinə kömək edir, arterial təzyiqi tənzimləyir. Revmatizmdən əziyyət çəkənlərə də qum üzərində gəzmək məsləhət görülür. Üzü dəniz qumu ilə yumaq onun daha təmiz və canlı görünməsinə kömək edir.

Lakin mütəxəssislər dəniz qumunun faydası ilə yanaşı, zərərli tərəflərinin olduğunu da bildirirlər. Məsələn, qumda çox qalmaq iflic olma riski yaradır. Bundan əlavə təzyiq, şəkər və ürək-damar sistemi xəstəliklərindən əziyyət çəkənlərin də uzun müddət qumda basdırılmış vəziyyətdə qalması məsləhət görülmür.

# YARIZARAFAT, YARIGERÇƏK

**Bekar adam yoxdur. Təkcə arxamızda nə qədər iş görənlər var.**

**Layiq olduğun şeyi istə, verim. Lap ürəyim olsun.**

**Adamları dəyişə bilməyən qaydaları dəyişirlər.**

**Bəziləri naqis cəhətlərini heç qırx saniyə də gizlədə bilmirlər:gözlərindən oxunur.**

**Maaşa baxmayanlar görəsən mənə niyə birtəhər baxırlar?**

**Heç vaxt yaxşılıq etməmək bəzi adamların amalıdır?**

**İsti havada daha soyuqqanlı olmaq lazımdır.**

**Yaxşı adam hətta yuxuda da pislik etməz.**

**Ağıllı və təhsilli uşaqlar gələcəyimizə qoyulan ən böyük sərmayədir.**

**Doğru bildiyimizi yox, doğru olanı etməliyik.**

**Vicdanının səsindən başqa hər şeyə qulaq asan var.**

**Pisi tərifləmək yaxşını pisləməkdən daha pisdir. Çünki pisləməklə yaxşı dönüb pis olmur. Amma pis daha da azğınlaşır.**

**Bəzi adamları görəndə özümü yelləncəkdə hiss edirəm. Sizin də ürəyiniz bulanır?**

**Pis adamlara hər şey verəndə yaxşıya heç olmasa rahat nəfəs almaq imkanı vermək lazımdır.**

**Ağac kəsən ömründən kəsir.**

**Nədən nə qədər qorxsan, o qədər də üstünə gələcək.**

**Pisliyin qapısını döyməyə ehtiyac yoxdur. Pisliyə tərəf boylanmaq kifayətdir ki, qapısı üzünüzə tam açılsın.**

**Hətta yatanda da yaxşılıq libasını əynindən çıxarma.**

**Həyatda heç kəsə yaxşılıq etməyən cibində saman çöpü gəzdirsə yaxşıdır.**

**Saxlaya bilməyən papaq niyə qoysun?**

**İndi ən çox səsi olmayanların səsi gəlir.**

**Layiq olmayan daha çox şey istəyər.**

**Bəzilərinin nə istədiyini anlamaq üçün dahi olmaq vacib deyil.**

**İndi heç qırxında da öyrənmək istəmirlər.**

**Böyük məmnuniyyətlə yalan danışmaq olarmış.**

**Hər birimizin səhvi olduğu üçün dünya həbsxanaya dönüb?**

**Əsas o deyil ki, gündə neçə saat yatırsan. Əsas odur ki, neçə saat ayıq olursan.**

**Yalanlar övladlar kimi gözümüzün önündə böyüyr.**

**Bəzi adamlar qazandıqları hər şeyə görə yalanlarına borcludurlar.**

**Söhbətin nədən getdiyini bilməyənlər uzağı nə qədər dərinə gedə bilərlər?**

**Bəzi müğənnilər elə oxuyurlar, sanki onların ətini kəsirlər.**

**Heç kəsin inanmadığı yalanı danışmağa nə boyda cəsarət gərəkdir.**

**Nə elədiklərini özləri də bilməyənləri anlamağa çalışmıram.**

**Sözü bal olan da var, kal olan da.**

**İndiki zamanda ən yaxşı qonaqlar səbəbindən asılı olmayaraq gələ bilməyən qonaqlardır.**

**Bəziləri elə bilir ki, tənbəl olduğum üçün pulun dalınca qaçmıram.**

**Eyni ağılda olanların və ağlı heç olmayanların sözləri bir-biri ilə yaxşı tutur.**

**Hər yer tutulan yerdə haqq yerini necə tuta bilər?**

**Deyəsən işə götürəndə daha çox namizədlərin qulaqlarına baxmaq lazımdır.**

**Yıxılmasan, "bərk" getməyə nə var ki...**

**"Tarix-Nadir"i yarıyacan oxuyanlarla heç vaxt mübahisə etmədim. Qoy güclərini qalan yarısını oxumağa sərf etsinlər.**

**Düşüncələri çirkli olan adama əlləri təmiz olanda da əl verməyin.**

**Bütün natamamlar həmişə mənə nəyisə sübut etməyə çalışıblar.**

**Bütün əyri yollar "gəl-gəl" deyər.**

**Vaxtın çox olanda da qısa və aydın danış.**

**Kiminin əlindən tuturlar, kiminin də dilindən.**

**İndi çox rahatam:güvəndiyim kimsə yox.**

**Başıboş adamlar nəyi bacarmasalar da, "müdrik görünməyi" bacarırlar.**

**Səhv etməməyə çalışın. Səhvlər gec-tez adamı ələ verir.**

***Rasif TAHİROV***

# YELKƏNÇİLƏR ÜÇÜN TƏLİM DÜŞƏRGƏSİ TƏŞKİL EDİLİB





***Yelkənli İdman Federasiyasının komandasının hazırlığı, o cümlədən yerli məşqçilərin təcrübə qazanması məqsədi ilə 31 may – 3 iyun tarixlərində təlim düşərgəsi təşkil olunub.***

Federasiyadan verilən məlumata görə, məşqlərin yüksək keyfiyyətli olması və bu istiqamətdə peşəkarlığın artırılması məqsədilə beynəlxalq səviyyəli məşqçi Dragan Gasic Yelkənli İdman Federasiyası tərəfindən təlimə cəlb edilib.

Dragan Gasic 30 il məşqçi kimi fəaliyyət göstərib, 6 dünya və 4 avropa çempionatının qalibi olub. Beynəlxalq səviyyəli məşqçi məşq prosesindən və idmançılarımızın hazırlığından razı qaldığını bildirib.

Dörd gün davam edən təlimlər 10 saat nəzəri və 20 saat dənizdə praktiki məşqlərdən ibarət olub.

Məşqlərdə 16 idmançı və 4 məşqçi iştirak edib.

Qeyd edək ki, aktiv bazası 2014-cü ildən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının əsas məqsədi hər zaman maddi texniki bazanı gücləndirmək, məşqçi korpusunu formalaşdırılmaq, komandaya yeni idmançıları cəlb etməkdir.

# ƏN BAHALI FUTBOLÇULAR

THE PROFESSIONAL FOOTBALL PLAYERS OBSERVATORY

***CIES Futbol Araşdırmaları Mərkəzi dünyanın ən bahalı 100 futbolçusunun siyahısını açıqlayıb.***

Siyahıya 201,2 milyon avro dəyərində qiymətləndirilən "Tottenhem"in hücumçusu Hari Keyn başçılıq edir.

H.Keynin ən yaxın izləyicisi PSJ-nin hücumçusu Neymardır (195,7 milyon avro). İlk üçlüyü isə braziliyalının komanda yoldaşı 19 yaşlı fransız Killian Mbape (186,5 milyon avro) tamamlayır.

"Barselona"dan Lionel Messi (184,2 milyon avro) dördüncü, "Liverpul"un misirli futbolçusu Məhəmməd Salah (171,3 milyon avro) beşincidir.

# AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ 160 İLLİYİ ƏRƏFƏSİNDƏ TƏSVİRİ İNCƏSƏNƏT MÜSABİQƏSİ KEÇİRİR

*Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi 160 illik yubileyi ərəfəsində gənc rəssamlar üçün*

***"Gəmiçilik - 160", "Mənim Xəzərim", "Dəniz cəsurları sevir"***

***mövzularında təsviri incəsənət (rəngkarlıq, heykəltəraşlıq, qrafika) müsabiqəsini elan edir.***

***QAYDALAR***

**Təşkilatçı**

Müsabiqə 2018-ci ildə 160 illik yubileyini qeyd edəcək Respublikanın qocaman müəssisəsi olan Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi tərəfindən (bundan sonra - Təşkilatçı) təşkil olunur.

**Məqsəd**

Xəzər dənizçilərinin çətin və spesifik əməyi ilə geniş auditoriyanı yaxından tanış etmək;

Xəzəri əlverişli su yolu, zəngin təbii sərvət qaynağı, gözəl mənzərələr məkanı kimi tərənnüm etmək və qiymətli ekosistem kimi qorunmasının vacibliyini ön plana çəkmək;

Rəssamları dənizçilərin fədakar əməyi ilə dərindən tanış olmağa stimullaşdırmaq;

Gənc və istedadlı rəssamları dəstəkləmək və onların işi ilə geniş auditoriyanı yaxından tanış etdirməkdir.

**Müsabiqədə iştirak etmək üçün şərtlər**

İştirakçılar üçün yaş həddi 17-dən 35-dək müəyyənləşdirilmişdir.

Müsabiqəyə təqdim edilmək üçün hazırlanmış rəsm əsəri böyük hissədə minimum 50 santimetrdən az olmamalıdır.

Müsabiqə üçün işlər avqustun 20-dək Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə təqdim olunmalıdır.

Müsabiqə üçün əsərlərin elektron variantda fotoşəkli mütləqdir.

Müsabiqə üçün əsərlərin fotoşəkillərini çəkərkən paspartu və çərçivədən istifadə edilməlidir.

İştirakçı özü haqda qısa məlumatı və əlaqə telefonunu göstərməklə əsərlərin fotolarını aşağıda göstərilən email ünvana yollamalıdır.

Email: *resmmusabiqesi@acsc.az*

**Müsabiqənin keçirilmə müddəti**

Əsərlərin qəbulu 20 may 2018-ci ildən başlayaraq 20 avqust 2018-ci il tarixinədək davam edəcək.

**Tələblər**

Əsərlərin fotoşəkilləri maksimum dərəcədə keyfiyyətli və JPG formatında olmalıdır.

İştirakçı müsabiqəyə yalnız bir mövzu üzrə və müvafiq olaraq bir ədəd iş təqdim edə bilər.

Əsərlərdə müəllifin imzası olmalıdır.

**Seçim prossesi**

Birinci mərhələdə təqdim olunan əsərlər eyni vaxtda olmaqla Facebook (Azerbaijan Caspian Shipping Company / Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi , link- https://www.facebook.com/Azerbaijan.Caspian.Shipping.Company/ ) səhifəsində sentyabrın 1-dən 15-nə kimi açıq səsverməyə çıxarılacaq.

İkinci mərhələdə müsabiqədə iştirak edəcək əsərlər Azərbaycan Respublikasının Rəssamlıq Akademiyası, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin nümayəndələrindən ibarət münsiflər heyətinə təqdim olunacaq və onlar tərəfindən qiymətləndiriləcək.

Ümumi müsabiqənin qalibləri Facebook səsverməsinin nəticələri və münsiflərin rəyi ilə müəyyən olunacaq.

Şəffaflığın təmin edilməsi üçün əsərlər səsverməyə kodlaşdırılmış formada çıxarılacaq.

**Müəlliflik hüququ**

Əsərlərə görə hüquq yalnız onların müəlliflərinə məxsusdur. Təşkilatçı isə əsərlərin bukletini çap etmək, onları müxtəlif tədbirlərdə sərgiləmək, fotoşəkillərini tanıtım materiallarında, eyni zamanda sosial şəbəkələrdə istifadə etmək hüququna malikdir. Təşkilatçı təqdim olunan rəsm əsərlərinin fotoşəkillərini təkrar istifadə etmək və sürətini çıxartmaq hüququnu özündə saxlayır.

**Əsərlərin təqdimatı**

Müsabiqəyə təqdim olunan əsərlərin sərgisi təşkil olunacaq.

Təqdim olunan əsərlərdən ibarət kataloq çap olunacaq.

Sərgidə qaliblər mükafatlandırılacaq.

**Mükafatlandırılma**

*"Rəngkarlıq" nominasiyası üzrə:*
1-ci yer - 2000 AZN
2-ci yer - 1000AZN
3-cü yer - 500 AZN




*Həvəsləndirici yerlər*
4-cü yer - 200 AZN
5-ci yer - 100 AZN

***"Heykəltəraşlıq" nominasiyası üzrə:***
1-ci yer - 2000 AZN
2-ci yer - 1000AZN
3-cü yer -500 AZN

*Həvəsləndirici yerlər*
4-cü yer - 200 AZN
5-ci yer - 100 AZN

**"Qrafika" nominasiyası üzrə:**
1-ci yer - 2000 AZN
2-ci yer - 1000AZN
3-cü yer - 500 AZN

*Həvəsləndirici yerlər*
4-cü yer - 200 AZN
5-ci yer - 100 AZN

**Son müddəa**

Müsabiqədə iştirakın özü avtomatik olaraq müəllifin bu QAYDALAR-ın müddəaları ilə tam razılaşdığını bildirir.

**Əlaqə**
Tel: (+99412) 404 37 00
(daxili: 12 46, 12 45)
Ünvan: AZ 1029, Azərbaycan Respublikası, Bakı şəhəri, Heydər Əliyev pr-ti,152
Email: *resmmusabiqesi@acsc.az*

# AZƏRBAYCAN İDMANÇISI CİU-CİTSU ÜZRƏ AVROPA ÇEMPİONATININ QALİBİ OLUB

***Azərbaycan idmançıları Polşanın Qlivitse şəhərində keçirilən ciu-citsu üzrə Avropa çempionatında uğurla çıxış ediblər.***




Azərbaycan Ciu-citsu Federasiyasından bildiriblər ki, Avropa çempionatında ölkəmiz üç idmançı ilə təmsil olunub.

Təmsilçimiz Vüqar Cəfərov bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Millimizin digər üzvü Elşən İbişov finaladək inamla irəliləyib. Ancaq həlledici görüşdə uduzan idmançımız gümüş medalla kifayətlənib.

Ruslan Seyidov isə əlindən zədə aldığı üçün yarışı yarımçıq bitirmək məcburiyyətində qalıb.

# FRANSALI ÜZGÜÇÜ SAKİT OKEANI ÜZƏRƏK KEÇMƏK ÜÇÜN YOLA ÇIXIB



***Fransalı üzgüçü Ben Lekomt iyunun 5-də Sakit okeanı üzərək keçmək və yeni rekorda imza atmaq üçün Yaponiyanın şərq sahillərindən açıq dənizə yollanıb.***

Bu barədə TASS informasiya agentliyi xəbər verir.

Əlli yaşlı fransız artıq 1998-ci ildə 73 gün ərzində 6,4 min kilometr məsafəni qət edərək Atlantik okeanını üzərək keçmişdi. Bu dəfə isə Lekomit gün ərzində 8 saat üzərək və 8 min kalori yandıraraq 5,5 mil (9 min kilometr) məsafəni yarım il ərazində üzəcəyinə ümid edir.

Dünyada 27 elmi təşkilat, o cümlədən tibb və okeanoqrafiya təşkilatları fransalının dəstək qrupunun toplayacağı məlumatları gözləyəcək. Tədqiqatların böyük hissəsi Sakit okeanın plastik məmulatlarla çirklənməsinə yönələcək. Ümumdünya ətraf mühit günündə səfərə başlayan Ben Lekomit mikroplastikin dəniz ekosisteminə təsirindən narahatlıq keçirdiyini bildirib.

# BMT VELOSİPEDLƏRDƏN FƏAL İSTİFADƏ ETMƏYƏ ÇAĞIRIR

***Etibarlı və ekoloji təmiz nəqliyyat növü olan velosiped istixana qazlarının emissiyasının azaldılmasında mühüm rol oynayır. Mütəmadi olaraq velosiped sürən insanlar bu yolla özlərini ürək-damar xəstəliklərindən qoruyurlar. Velosiped idmanının bu üstünlükləri BMT Baş Məclisinin üzvlərinin diqqəti cəlb edib və onlar hər il iyunun 3-də Ümumdünya Velosiped Günü qeyd edilməsini qərara alıblar. Bu il həmin gün ilk dəfə qeyd edilib.***



Velosipedlər atmosferə istixana qazları ixrac etmir, küçədə səs-küy səviyyəsini artırmır. Küçələrdə velosipedlər nə qədər çox, avtomaşınlar nə qədər az olsa, yol qəzaları ehtimalı bir o qədər azalır. Dünya Səhiyyə Təşkilatının hesablamalarına görə, Avropa regionunda nəqliyyat ucbatından atmosfer havasının çirklənməsi nəticəsində hər il 500 minə yaxın insan həlak olur. Yol-nəqliyyat hadisələri hər il 90 min nəfərin həyatına son qoyur. Dünyada təxminən 70 milyon adam küçə hay-küyünün təsirindən əziyyət çəkir.

BMT Xəbərlər Mərkəzi bildirir ki, Baş Məclisin üzvləri bütün dövlətləri velosipedlərin populyarlaşdırılmasına kömək etməyə çağırıb. Onlar vurğulayıblar ki, idarə edilməsi asan, qiyməti münasib, etibarlı və ekoloji cəhətdən təmiz olan bu nəqliyyat vasitəsi insanların fiziki və psixi sağlamlığını möhkəmlətməyə kömək edir. BMT ekspertləri bütün ölkələri Danimarkadan nümunə götürməyə çağırırlar. Dünyada ən "velosipedləşmiş" ölkələrdən biri olan Danimarkanın paytaxtı Kopenhagendə oxuyan və ya işləyən sakinlərin təxminən 50 faizi təhsil və ya iş yerinə velosipedlə gedir.

# ÖMRÜ UZATMAĞIN EFFEKTİV YOLU

***Sürətli yürüş asta gəzinti ilə müqayisədə insan həyatını daha effektiv uzadır.***



Bu barədə müvafiq təhqiqat "British Journal of Sports Medicine" jurnalında dərc olunub.

Sidney Universitetinin alimləri İngiltərə və Şotlandiyada 50 min 225 insanın müayinəsindən əldə olunan məlumatlar əsasında təhlillər aparıblar. Tədqiqat iştirakçıları mütəxəssislərə piyada gəzinti zamanı hansı tempi (yavaş, orta, yaxud sürətli) daha çox sevdiklərini bildirib.

Alimlər yaş, cins, ümumi fiziki aktivlik və bədən çəkisinin indeksi kimi faktorlar nəzərə alınmaqla, əldə olunan məlumatları tədqiq ediblər. Məlum olub ki, asta yerişlə müqayisədə orta temp vaxtsız ölüm riskini 20 faiz, sürətli temp 24 faiz azaldır. Habelə gəzintinin müsbət təsiri 60 yaşdan yuxarı insanlarda daha çox nəzərə çarpır. Belə ki, orta temp ürək-damar xəstəliklərindən ölüm riskini 46 faiz, sürətli temp isə 53 faiz azalda bilir.

# YUXUDAN ERKƏN OYANANLAR ENERJİLİ OLURLAR



***Səhər erkən yuxudan oyanmaq sağlamlığa yaxşı təsir edir. Alimlərin apardığı araşdırmalar nəticəsində məlum olub ki, erkən oyanmanın mənəvi və fiziki cəhətdən faydalı cəhətləri var.***

Tezdən yuxudan oyananlar gün ərzində daha enerjili olurlar. Gec yatıb səhər yuxudan oyana bilməyənlər isə günboyu özlərini yorğun hiss edirlər. Onlar vaxtı düzgün bölə bilmədiklərinə görə dostları ilə görüş və əyləncələri qaçırırlar.

Yuxudan nə vaxt oyanmaq həm iş həyatına, həm də şəxsi həyata yaxşı təsir edir. Erkən qalxanlar özlərini daha xoşbəxt hiss edirlər. Alimlər bunun səbəbini səhər saatlarında havada ionların çox olması ilə əlaqələndirirlər. Bu hal tezdən oyananlarda depressiya riskini xeyli azaldır. Araşdırmalar göstərir ki, gec yatıb səhər yuxudan oyanmaqda çətinlik çəkənlər yeniliyə meyilli olur, gün ərzində daha çox fast-fud və şirniyyat yeyirlər. Tez yatıb erkən oyananlar isə günboyu özlərini enerjili və tox hiss edir, ona görə də meyvə və tərəvəzlərlə qidalanmağa üstünlük verirlər.

Araşdırmalar sübut edib ki, səhər erkən oyananlar çətinliklə üzləşəndə onu çox sakit şəkildə yoluna qoya bilirlər.

# SAKİT VƏ KLASSİK MUSİQİLƏR SUYUN ÜZÜNDƏ GÖZƏL FİQURLAR YARANMASINA SƏBƏB OLUR

***Gözəl musiqini ruhun qidası hesab edirlər, lakin onun sehrinə təkcə insanlar deyil, təbiətdə də düşənlər var. Klassik musiqinin delfin və köpək balıqlarına müsbət təsir etdiyi də məlumdur.***

Alimlər musiqinin təbiətə təsirini öyrənmək üçün bitkilər üzərində müşahidələr aparıblar. Məlum olub ki, klassik musiqi sədaları altında noxud iki gün tez yetişir, buğda isə daha tez boy atır. Aqressiv musiqilərin səslənməsi isə bitkilərin tez solmasına səbəb olur.

Musiqi dinləyərkən insanlar melodiyaya, çiçəklər isə ritmə münasibət bildirir. Sakit və klassik musiqilər hətta suyun üzündə də gözəl fiqurlar yaranmasına səbəb olur. Suyun yanında mənfi yüklü musiqinin səslənməsi zamanı molekulların daha xaotik hərəkəti müşahidə edilir.



BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1824